www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 aprel 2024-cü il Çərşənbə № 57 (8430) Qiymәti 60 qәpik

## Xəbər

### “Bakıdakı İsrail səfirliyinə hücum etməliyik” çağırışına cavab

yazısı səh.5-də

## Gündəm

### Bakı AŞ PA-ya üzvlük haqqı ödəməyi dayandırır




Azərbaycan nümayəndə heyətinin aprel sessiyasına qatılması mümkün olmayacaq

yazısı səh.3-də

### NATO “müşahidəçi” adı altında Azərbaycan sərhədində

yazısı səh.6-da

### Paşinyan ermənilərlə Azərbaycan dilində danışmağa başladı

yazısı səh.7-də

### Ağdamdakı Türkiyə-Rusiya mərkəzi bağlana bilər - səbəb

yazısı səh.9-da

### Taksilərə kamera quraşdırılmasına etirazlar

yazısı səh.10-da

### Kimin özəlləşdirmə çeki evində qalıbsa... - mühüm gəlişmə

yazısı səh.14-də

### Qazaxıstandan gətirilmiş 14 ton at əti necə sərf olundu?

yazısı səh.14-də

### ABŞ-ın İran elçisinin Azərbaycan səfərinin pərdəarxası

yazısı səh.8-də

### Təhsillə bağlı yeni plan müəllimləri işsiz qoya bilər

yazısı səh.15-də

### Ramazan ayının 24-cü günü

İftar 19.22. İmsak 04.51-dək (Bakı)

24-cü günün duası: “İlahi, bu gün Səndən, Səni razı salan əməlləri istəyirəm və Səni qəzəbə gətirən əməllərdən Sənə pənah aparıram. Səndən istəyirəm ki, belə bir gündə məni, Sənə itaət etməyə və günah etməməyə müvəffəq edəsən. Ey, hacəti olanlara səxavət və kərəm edən Allah!”

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ÖLKƏ O MÜHÜM XƏBƏRİ GÖZLƏYİR - HAZIRLIQLAR BAŞLADI

Növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ehtimalı yüksəkdir; partiyalardan reaksiyalar



yazısı səh.11-də

# Xəzərin o tayından Azərbaycana İŞİD təhlükəsi

Dağıstanda, o cümlədən Qazaxıstanda və Türkiyədə antiterror əməliyyatları başlayıb; **təhlükəsizlik və hərbi ekspertlər:** “Ətrafımızda terror riski artır, ehtiyatlı olmalıyıq”

yazısı səh.4-də



### Zərdüşt Əlizadənin sensasion iddialarına etirazlar

yazısı səh.12-də




### CHP başqanının Bakıya məktubunda verdiyi mesaj

yazısı səh.12-də



*Rövnəq Abdullayev:*

### “Kral öldü, yaşasın yeni kral!”

yazısı səh.3-də

# 23 saylı məktəbdə nə baş verib?




**"Aprel ayının 1-də 23 nömrəli tam orta məktəbdə tənəffüs zamanı şagirdlər arasında insident yaranıb". Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi Bakıda məktəbdə baş vermiş hadisə ilə bağlı məlumat yayıb.**

Bildirilib ki, məktəb rəhbərliyi hadisəyə dərhal müdaxilə edib.

Məsələ ilə bağlı Nəsimi Rayon Polis İdarəsinə, digər müvafiq qurumlara, eyni zamanda şagirdlərin valideynlərinə məlumat verilib və məktəbə çağırılıblar: "Baş vermiş hadisə nəzarətdə saxlanılır. Agentliyin, eyni zamanda Uşaqların Müdafiəsi İdarəsinin əməkdaşları da məktəbdə olublar. Zərərçəkmiş şagirdə ilkin tibbi-yardım göstərilib və evə buraxılıb. Hazırda şagirdin səhhətində hər hansı təhlükə riski yoxdur. Şagirdin fiziki və psixoloji durumu məktəb rəhbərliyi və agentlik tərəfindən izlənilir.

Uşaqların yeniyetməlik dövrü olduğunu, araşdırma prosesinin davam etdiyini nəzərə alaraq ictimaiyyətdən də bu mövzuda daha həssas davranmalarını, paylaşımlarda rəsmi qurumların açıqlamalarına istinad etməyi xahiş edirik".

Qeyd edək ki, aprelin 1-də 23 saylı məktəbdə 9-cu sinif şagirdi olan qız bıçaqla oğlan şagirdin boğazına xəsarət yetirib.



## Türkiyənin müdafiə şirkətlərinin rəhbərləri İlham Əliyevin qəbulunda

**Prezident İlham Əliyev aprelin 2-də Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə "ASELSAN" şirkətinin baş direktoru Ahmet Akyol, "ASFAT" şirkətinin baş direktoru Behçet Karataş, "HAVELSAN" şirkətinin baş direktoru Mehmet Akif Nacar, "Maşınqayırma və Kimya Sənayesi" şirkətinin baş direktoru İlhami Keleş, "REPKON Grup" şirkətinin prezidenti İbrahim Külekçi, "ROKETSAN" şirkətinin baş direktoru Murat İkinci, "Müdafiə Texnologiyaları və Mühəndislik" şirkətinin baş direktoru Özgür Güleryüz, "Türkiyənin Aviasiya və Kosmos Sənayesi - TUSAŞ" şirkətinin baş direktoru daxildir.



## Sahil Babayev saxta əlillərdən danışdı

**"2021-2022-ci illərdə böyük sayda müddəti bitən əlillik işlərinin baxılmasını təmin etmişik". Bunu DOST TV-nin canlı yayımında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib.**

Nazir bildirib ki, 2016-cı ildə qəbul edilən qərara əsasən, əlilliklər avtomatik olaraq 5 il müddətinə artırılmışdı: "Ona görə ona qədərki dövr və əvvəlki illərdə ildə təxminən 30-40 min vətəndaşın əlillik müddəti bitirdisə, məhz 2021-ci ildə o 5 ilin toplanmış rəqəmi olaraq 200 minə qədər vətəndaşımızın əlillik müddəti bitdi. Onların qiymətləndirilməsinin aparılması zamanı gördük ki, bir çox vətəndaşımızın ya müddətdən xəbəri olmur, ya müvafiq qanunvericiliyin tələb etdiyi tibbi prosedurlardan vaxtında keçə bilmirlər. Ona görə 2021-ci ildə qanunvericiliyə dəyişiklik edildi və dəyişikliklər həmin il yanvarın 1-dən qüvvəyə mindi. Bu qərara əsasən, əlillik müddəti bitdikdən sonra yeni əlilliyin təyin olunmasına qədər 6 ay müddətə qədər vaxt keçirsə, o müddət üçün ödəniş həyata keçirilir. Minlərlə vətəndaş bu mexanizmdən istifadə edib. Təkcə 2021, 2022 və 2023-cü illərdə 6 aya qədər müddət üçün 13 milyon manatdan çox vəsait ödənilib", - Sahil Babayev deyib.

Nazir vurğulayıb ki, saxta yollarla əlillik alanların əksəriyyəti sistemdən kənarlaşdırılıb. Onun sözlərinə görə, haqqı çatan şəxslərin əlillik dərəcəsi almasında hər hansı problem yoxdur.

**Sahil Babayev qeyd edib ki, bəzən tibb müəssisələrindən gələn natamam sənədlər səbəbindən müraciətlərə imtina cavabı vermək halları olur:** "Vətəndaş qəbulunda müraciətlər olur və qiymətləndirilməsi də aparılır. Onu da qeyd edim ki, hər xəstəlik də əlillik deyil. Müəyyən xəstəliyi olan vətəndaş əlillik tələb edir. Lakin o halda əlillik təyin edilir ki, xəstəlik həmin şəxsin əmək fəaliyyətinə, həyat qabiliyyətinə ciddi təsir etmiş olur. Ona görə hər kəs Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə güvənsinlər və rahat müraciət etsinlər. Bəzən tibb müəssisələrindən gələn natamam sənədlər səbəbindən imtina halları olur. Lakin əyani müayinədən sonra hüququn tam şəkildə təmin edə bilirik. Təbii ki, əyani müayinə də yalnız vətəndaş müraciətindən sonra baş tuta bilər".



## Ukraynada vəfat edən jurnalist dəfn olunub

**Ukraynada vəfat edən azərbaycanlı jurnalist İdrak Camalbəyli dəfn olunub.**

"Report"un məlumatına görə, dəfndə mərhumun ailə üzvləri, yaxınları və Ukraynanın Azərbaycandakı səfirliyinin əməkdaşları iştirak edib.

Mərhum jurnalist Masazır kənd qəbiristanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, İ.Camalbəyli martın 29-da uzun müddətdir yaşadığı Ukraynanın paytaxtı Kiyev şəhərində ürəktutmasından vəfat edib.

## 1 yaşlı uşağa siqaret çəkdirən Elbrus...

**Sosial şəbəkələrdə canlı yayımda uşağa tütün məmulatları çəkdirilməsini əks etdirən görüntülər polis tərəfindən araşdırılıb.**

DİN-in mətbuat xidmətinin baş inspektoru Elbrus İbrahimov bildirib ki, tədbirlərlə 1 yaşlı övladını hüquqazidd hərəkətə məruz qoyan 1993-cü il təvəllüdlü Nəbili Məhəmməd müəyyən olunaraq saxlanılıb. O, bu hərəkətinin məqsədini sosial şəbəkələrdə auditoriya toplamaq olması ilə izah edib.

Onun barəsində qanunvericiliyə uyğun olaraq tədbir görülüb.

## Nazir AFFA-dakı seçkiyə gəlmədi



**Aprelin 2-də AFFA-nın Hesabat-Seçki konfransı keçirilib.**

"Qafqazinfo"nun məlumatına görə, gənclər və idman naziri Fərid Qayıbov konfransda iştirak etməyib. İlk dəfədir ki, gənclər və idman naziri bu tədbirə qatılmayıb.

Maraqlıdır ki, AFFA-nın İcraiyyə Komitəsində Gənclər və İdman Nazirliyini heç kim təmsil etməyəcək. Futbol Federasiyasının ölkənin əsas idman qurumlarından biri olduğunu nəzərə alsaq, baş verənlər maraq doğurur.

Gənclər və İdman Nazirliyinin mətbuat xidməti isə Fərid Qayıbovun iclasda iştirak etməməsi ilə bağlı suala belə cavab verib: "Nazir müavini Mariana Vasileva və idman şöbəsinin müdiri Elnur Məmmədov iştirak ediblər".

Nazirlik qurum rəhbərinin iştirak etməməsinin səbəbini açıqlamayıb.

Qeyd edək ki, bir neçə gün əvvəl idman mediasında nazir Fərid Qayıbovun sözügedən tədbirdə iştirak etməyəcəyi ilə bağlı məlumat yayılmışdı.

## Tofiq Yaqublu həbsdə qaldı



**Bakı şəhər Nərimanov Rayon Məhkəməsində Tofiq Yaqublu barədə qərar qəbul olunub.**

Hakim Hafiz Kamranovun sədrliyi ilə keçirilən məhkəmə iclasında onun ev dustaqlığına buraxılması ilə bağlı vəsatətə baxılıb və təmin edilməyib.

Qeyd edək ki, o, ötən il dekabr ayının 14-ü saxlanılıb. T.Yaqublu Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq etmə), 320.1 (rəsmi sənədləri saxtalaşdırma) və 320.2-ci (bilərəkdən saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham olunur. O, Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs edilib.



## İsa Qəmbər qayıdır?

**Müsavat Partiyası qurultayla bağlı hazırlıqlarını başa çatdırıb.**

"Qaynarinfo" xəbər verir ki, partiya nəzərdə tutulan qurultayını may ayının 4-nə təyin edib.

Bununla bağlı Müsavat Məclisi aprelin 30-da qərargahda iclas keçirib. İclasda çıxış edən Məclis sədri Nüşabə Sadıqlı Müsavat Partiyasının sabiq rəhbəri İsa Qəmbərin yenidən başqanlığa namizəd olması təklifi ilə çıxış edib.

Çıxış edən divan üzvləri Məclis sədrinin təklifini dəstəklədiyini vurğulayıblar. Bundan əlavə, qurultayla bağlı partiyanın rayon təşkilatlarında keçirilən ümumi yığıncaqlarında da İsa Qəmbərin yenidən namizədliyini irəli sürməsi ilə bağlı çoxsaylı üzvlərdən müraciətlər daxil olduğu diqqətə çatdırılıb.

İsa Qəmbər isə bu etimada görə partiya üzvlərinə təşəkkür edib və təklifləri nəzərdən keçirəcəyini, düşünəcəyini və yaxın günlərdə qərarını açıqlayacağını bildirib.



## Ramin Bayramlı milyonluq şirkətini satdı

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sabiq sədri Ramin Bayramlının "SPEKTR MED" şirkəti ondan alınıb.**

Bakupost.az xəbər verir ki, şirkət əvvəlcə fiziki şəxsin adına rəsmiləşdirilib, daha sonra isə "Avromed" şirkətinə verilib.

Qeyd edək ki, Ramin Bayramlı TƏBİB-ə sədr təyin edildikdən sonra "SPEKTR MED" (VÖEN-i 2001534811) MMC-ni alaraq, dövlət satınalmalarını həmin şirkət vasitəsilə həyata keçirib.

COVİD-19-la mübarizə işinin təşkili üçün tibb müəssisələrində yeni laboratoriyaların qurulması da R.Bayramlının "SPEKTR Med" şirkəti vasitəsilə həyata keçirilib. Bu əməliyyatlarda R.Bayramlının milyonlarla vəsait əldə etdiyi bildirilir.

**"UEFA prezidenti Aleksandr Çeferinin salamlarını sizlərə çatdırıram". UEFA İcraiyyə Komitəsinin üzvü Servet Yardımçı AFFA-nın Hesabat-Seçki Konfransında çıxışı zamanı belə deyib.**



# "Kral öldü, yaşasın yeni kral"!



## Rövnəq Abdullayevin AFFA prezidenti kimi son sözü; SOCAR-ın prezidenti AFFA rəhbəri oldu, bu vədləri verdi




O, geridə qalan 16 ilin Azərbaycan futbolu üçün enişli-yoxuşlu olduğunu bildirib: "UEFA adından Rövnəq Abdullayevə 16 il ərzində AFFA-ya rəhbərlik etdiyi üçün təşəkkür edirəm. Bu müddət ərzində enişli-yoxuşlu yollardan keçilib. Geridə qalan müddətdə AFFA rəhbərliyi Azərbaycanı UEFA-da yeni sima kimi təqdim edə bilmişdir. Bu töhfə üçün sizə təşəkkür edirəm. Gələcəkdə AFFA-ya dəstəyimizi davam etdirəcəyik. Yenə də qarşıdakı mərhələdə Azərbaycan futboluna strateji yönümlü investisiya yatırdacağıq".

**O, konfransda iştirak etməkdən məmnun olduğunu söyləyib:** "Mən sizin həmyerlinizəm. Rövnəq bəy, sizə təşəkkür edirəm. Azərbaycan futboluna böyük fayda verdiniz. Rövşən bəy (Rövşən Nəcəf - red.), sizə də indidən uğurlar arzu edirəm. Azərbaycan futbolunu daha da irəli aparacağınızdan şübhəm yoxdur".

Toplantıda AFFA-nın baş katibi Sərxan Hacıyev, Milli Olimpiya Komitəsinin baş katibi Çingiz Hüseynzadə, AFFA-nın Maliyyə və Mühasibatlıq Departamentinin rəhbəri Xalid Cavadov, FİFA-nın Avropa Milli Assosiasiyaları Departamentinin direktoru Elxan Məmmədov çıxış ediblər.

"Haqqınızı halal edin. Hər şeyə görə, təşəkkür edirəm". Rövnəq Abdullayev konfransında çıxışı zamanı belə deyib. "AFFA kollektivinə, futbol ailəsinə minnətdarlıq bildirirəm. Sağ olsunlar. Hamısı ürəkdən çalışdı. Şükür Allaha, bundan sonra futbola rahat baxa bilərəm. Neytrallıq məni bir az sıxırdı. Deyirdilər ki, milliyə azarkeşlik edə bilərsən, klublara yox. "Kral öldü, yaşasın yeni kral""!

Sonra seçki keçirilib. Son 16 ildə AFFA-ya rəhbərlik etmiş Rövnəq Abdullayev namizədliyini irəli sürməyib. Bu dəfə yeganə namizəd SOCAR-ın prezidenti Rövşən Nəcəf olduğundan o, AFFA-nın növbəti prezidenti seçilib. Beləliklə, R.Nəcəf Fuad Musayev, Ramiz Mirzəyev və Rövnəq Abdullayevdən sonra AFFA tarixində 4-cü prezident olub.

"Azərbaycan həm də idman ölkəsi kimi tanınır. İdmançılarımız Olimpiya oyunlarında, Avropa və dünya çempionatlarında daim uğur qazanıblar. Ölkə Prezidentinin siyasəti nəticəsində idmanda da uğurlar əldə etmişik. Futbolda da irəliləmək üçün böyük imkanlar mövcuddur. Birlikdə çalışmalıyıq".

**AFFA-nın yeni prezidenti Rövşən Nəcəf belə deyib. O bildirib ki, futbol meydandan kənarda da oynanılır:** "AFFA, federasiyalar, media, sponsorlar, hamımız əl-ələ verib, Azərbaycan futbolunu daha da yüksəklərə qaldırmalıyıq. Öncə hədəflərimizi müəyyənləşdirməliyik. Qısa müddətdə yeni strategiyanı hazırlayacağıq. Biz hər an bilməliyik ki, düz yoldayıq, qoyduğumuz məqsədə çata biləcəyik? Strategiya ilə hədəflərə çatacağımıza inanıram".

**O, uşaq futbolunun inkişafına böyük diqqət ayrılacağını söyləyib:** "Gənc istedadları müəyyənləşdirib, onların millidə uğurlu çıxışlarına töhfə verməliyik. Azarkeşlərin stadionlara cəlb edilməsi, futbolun populyarlaşmasına nail olmalıyıq. Avrokuboklarda gördüyümüz azarkeş sayını çempionatımızda da görmək istəyirik. Azarkeşlərlə, sponsorlarla, teleyayım şirkətlərlə işləyərək buna nail ola bilərik. Teleyayım keyfiyyətinin inkişafının artırılması önəmlidir".

**Qadın futbolunun inkişafı üçün də çalışacaqlarını qeyd edən R.Nəcəf ölkəmizdə futbola böyük maraq olduğunu bildirib:** "Uğurlu çıxışların davamlı olması üçün hər bir şəraiti təqdim edəcəyik. Ölkəmizdə futbola maraq böyükdür. Amma bu marağı stadiona gələn azarkeşlərin sayında görmək istəyərdik. Futbolla məşğul olanların sayının artmasında görmək istəyərdik. Bir günün işi deyil. Zəhmət, zaman tələb edir. Hamımızın fəxr və qürurla qeyd etdiyi klub uğurlarımız zaman və səbrdən irəli gəlir. Millimizin 113-cü yerdə olması heç birimizi qane etmir. Ümid edirik ki, bütün qurumlarla çalışaraq hədəflərə nail olacağıq. Etimada görə təşəkkür edirəm".

**Konfransda AFFA İcraiyyə Komitəsinin yeni tərkibi də təsdiqlənib. İK yeni üzvləri aşağıda adları qeyd edilən şəxslər olub (alnernativ namizədlər yoxdur):**

**Peşəkar Futbol Liqası İctimai Birliyi - 5 yer:**

1. Səməd Qurbanov - "Neftçi" PFK tərəfindən
2. Fərid Mansurov - Peşəkar Futbol Liqası İctimai Birliyi tərəfindən
3. Xəyal Cəfərov - "Sumqayıt" FK tərəfindən
4. Qurban Qurbanov - "Qarabağ" FK tərəfindən
5. Maqsud Adıgözəlov - "Sabah" FK tərəfindən

**Regional Futbol Federasiyaları İctimai Birliyi - 3 yer:**

1. Elşad Nəsirov - Qərb Regional Futbol Federasiyası İctimai Birliyi tərəfindən
2. Balakişi Qasımov - Şimal Regional Futbol Federasiyası İctimai Birliyi tərəfindən
3. Sərxan Hacıyev - Regional Futbol Federasiyası İctimai Birliyi tərəfindən

**İctimai Futbol Təşkilatları İctimai Birliyi - 2 yer:**

1. Könül Mehtiyeva - İctimai Futbol Təşkilatları İctimai Birliyi tərəfindən
2. Zaur Axundov - Ümumazərbaycan Futbolsevərlərin İctimai Birliyi tərəfindən

**Sahə Futbol Federasiyaları İctimai Birliyi - 2 yer:**

1. Ülvi Mansurov - Azərbaycan Futzal Federasiyası tərəfindən
2. Leyla Xəlilova - Azərbaycan Tələbə Futbol Federasiyası tərəfindən

Qeyd edək ki, AFFA-nın yeni prezidenti Rövşən Nəcəf də İK-də təmsil olunacaq.

❑ **"Yeni Müsavat"**




## Bakı AŞ PA-ya üzvlük haqqı ödəməyi dayandırır

**Azərbaycan hökuməti Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarından irəli gələn təzminatların ödənişini dayandırıb. Bu barədə Gununsesi.info-nun əldə etdiyi məlumatda deyilir.**

Məlumata görə, bu qərar Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin mandatının bir illik dondurulmasından sonra verilib.

"Artıq xeyli vaxtdır ki, Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən təyin olunan təzminatların ərizəçilərə köçürülməsi dayandırılıb", - deyə bildirilir.

Saytın əldə etdiyi xəbərə görə, quruma üzv olan bəzi dövlətlərin, xüsusilə Moldovanın Azərbaycanla AŞ PA arasındakı münasibətləri qaydaya salmaq təşəbbüsləri də uğursuz olub. Bununla belə, Azərbaycanın Avropa Şurasına üzvlük haqqı ödəməyəcəyi barədə xəbərdarlığı da təşkilata çatdırılıb.

Azərbaycan nümayəndə heyətinin AŞ PA-nın aprelin 22-də keçiriləcək sessiyasına qatılması mümkün olmayacaq.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Azərbaycanla bu qurum arasındakı münasibətlərin qaydaya salınmasının mümkünlüyü barədə danışıb: "Biz AŞ PA-nı tərk edərkən öz bəyanatımızı səsləndirmişik. Bizim tələbimiz aydındır. Hesab edirik ki, AŞ PA öz səhvlərini etiraf etməli və Azərbaycana qarşı münasibəti kökündən dəyişməlidir".

Təzminatların dayandırılması məsələsinə gəlincə, Səməd Seyidov bu məsələnin dövlətin digər strukturlarının səlahiyyətinə aid olduğunu deyib: "Onlardan soruşsanız, daha detallı bilgi ala bilərsiniz".



Faiq Tağı-zadə

## Generalın ipoteka krediti borcu varmış - məhkəmə

**Fövqəladə hallar nazirinin müavini Faiq Cavad oğlu Tağı-zadənin həyat yoldaşı Dilarə Tağı-zadə tərəfindən əmlak bölgüsü ilə bağlı məhkəmə prosesi Səbayel Rayon Məhkəməsində hakim Şahin Abdullayevin sədrliyi ilə keçirilib.**

"Unikal"ın əldə etdiyi məlumata görə, proses zamanı məlum olub ki, Faiq Tağı-zadə özünə məxsus bağ evini ipoteka yüklü edərək "AFF Bank"a girov qoyub pul götürüb. Ancaq general kredit müqaviləsi üzrə öhdəlikləri yerinə yetirmədiyi üçün bank 2020-ci ildə Faiq Tağı-zadə və onun həyat yoldaşı Dilarə Tağı-zadə barədə Bakı Kommersiya Məhkəməsinə müraciət edib. Hakim Emin Əliyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində iddiaçı bankın xeyrinə qərar çıxarılıb və iş icraya yönəlib.

Hazırkı məhkəmədə çıxış edən "AFF Bank"ın nümayəndəsi Xəqani İmanovun bildirdiyinə görə, Dilarə Tağı-zadə icra işini uzatmaq üçün öz həyat yoldaşını məhkəməyə verib. Guya Faiq Tağı-zadə bağ evini girov qoyub kredit götürən zaman onun xəbəri olmayıb.

Halbuki "AFF bank" həmin vaxt Dilarə Tağı-zadə tərəfindən notarial qaydada verilən razılıq ərizəsini də məhkəməyə təqdim edib. Həmçinin bankın nümayəndəsi işdə kommersiya sirri olduğu üçün məhkəmə prosesinin qapalı keçirilməsi ilə bağlı hakimə şifahi vəsatət verib.

Dilarə Tağı-zadə sözügedən sayta bu barədə danışmaq istəməyib.

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024

**"Krokus Siti-Holl"dakı terror aktı İŞİD və ona bağlı terror qruplaşmalarının hələ də real təhlükə olduğunu göstərdi. Son günlər Azərbaycanla sərhəd ölkələrdə İŞİD terrorçularına qarşı genişlənən əməliyyatlar da bu mənada diqqət çəkir. Məsələn, martın 31-də Türkiyənin 21 vilayətində İŞİD terror təşkilatına qarşı genişmiqyaslı əməliyyat keçirilib. Bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bildirib.**

# Xəzərin o tayından Azərbaycana İŞİD təhlükəsi

## "Krokus Siti-Holl"dakı terror aktından sonra Rusiyanın ayrı-ayrı şəhərlərində və Dağıstanda, o cümlədən Qazaxıstanda və Türkiyədə antiterror əməliyyatları başlayıb; **təhlükəsizlik və hərbi ekspertlər:** "Ətrafımızda terror riski artır, ehtiyatlı olmalıyıq"

Məlumata əsasən, ötən dörd gün ərzində keçirilən əməliyyat zamanı İŞİD-lə əlaqəsi olmaqda şübhəli bilinən 147 nəfər saxlanılıb. Əməliyyat zamanı terror təşkilatına aid çox sayda sənəd və rəqəmsal material ələ keçirilib. Eyni zamanda Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin (FTX) xüsusi təyinatlıları Mahaçqala və Kaspiyskdə İŞİD-ə bağlı silahlı terrorçuların fəaliyyətinin qarşısını alıblar. Məlumata görə, Dağıstanın təhlükəsizlik orqanları əməliyyat-axtarış tədbirləri zamanı terrorçuluq fəaliyyətində iştirak edən silahlı şəxslərin harada olması barədə məlumat alıblar. FTX xüsusi təyinatlıları Mahaçqala və Kaspiysk şəhərlərinin yaşayış massivlərində bir neçə mənzili mühasirəyə alıblar. Bitişik evlərin sakinləri təxliyə ediliblər. FTX-nin xüsusi təyinatlıları Mahaçqala və Kaspiyskdə mənzillərdə terrorda iştirak edən silahlı şəxsləri ələ keçiriblər. Tutulanlardan biri etiraf edib ki, "Krokus"da terror törədənlərə silahları o gətirib. Yerli sakinlər ekstremizm və terrorizmlə mübarizədə problemlərin həllində hüquq-mühafizə orqanlarına dəstək verməyə çağırılıb. Həmçinin Stavropol şəhərində də anti-terror əməliyyatı keçirilib. Bundan başqa, Voronejdə kafeyə bombalı hücum olub.

Xəzərin daha bir sahilində - Qazaxıstanın Aktau şəhərində də terror aktı hazırlamaqda şübhəli bilinən şəxs saxlanılıb. Ondan partlayıcı üçün nəzərdə tutulan müxtəlif komponentlər və qadağan olunan digər əşyalar götürülüb. Saxlanılan şəxsin əvvəllər məhkum edildiyi və radikal islamçı baxışlara malik olduğu açıqlanıb. Ötən ay isə "Global Terrorism Index 2024" dövlətlərin terror təhlükəsinə görə açıqladığı reytinq sıralamasında Azərbaycan "0" indekslə sonuncu - 89-cu yerdə qərarlaşıb. Beynəlxalq hesabatlardan göründüyü kimi, nə qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, müstəsna dərəcədə uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş sürətli inkişaf, sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən son illər görülən effektiv işlər nəticəsində Azərbaycan dünyada ən yüksək daxili təhlükəsizlik reytinqinə yüksəlib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan təhlükəsizlik adasıdır.

Vaxtilə ölkəmizdən yüzlərlə gənc Suriyada, İraqda, Pakistanda və İŞİD sıralarında döyüşüb. İŞİD sərhədimizdə əvvəl İran (Kirman və Şiraz şəhərlərində - E.S), sonra Rusiyada terror törədib, Türkiyədə isə ciddi şəkildə yenidən "oturuşmağa" çalışır. Quru sərhədlərimiz bağlı olsa da, indi terror "verbovka"ları əsasən internet üzərindən edilir. O səbəbdən sərhədlərin bağlı qalması bizi arxayınlaşdıra bilməz. İnternet demişkən, bugünlərdə Özbəkistanın Miqrasiya Agentliyi açıqlama yaydı ki, sosial şəbəkələr vasitəsilə özbəkləri Rusiyada terrorçuluğa cəlb edirlər. Kəsəsi, regionumuzda, ətrafımızda İŞİD və bütövlükdə terror təhlükəsi artmaqdadır. Bu da Azərbaycanı daha da ayıq-sayıq olmağa dəvət edir. Faktiki olaraq, sərhədlərimizdə, Şimali Qafqazda bir "terror rüzgarı" əsməkdədir...

Bu situasiyanı "Yeni Müsavat"a şərh edən **təhlükəsizlik eksperti İlham İsmayılın** sözlərinə görə, rəsmi məlumata əsasən, Azərbaycandan 950 nəfər İŞİD-ə qoşulub, təxmini yarısı Yaxın Şərqdə gedən döyüşlərdə öldürülüb, bir hissəsi Əfqanıstan-Tacikistan sərhədində yerləşib: "Hətta onlar bir müddət əvvəl video yayaraq Azərbaycanı təhdid etmişdilər. Hazırda İŞİD elə haldadır ki, onun üçün hədəf xristian yox, müsəlman dövlətləridir. Düzdür, İŞİD Yaxın Şərqdə məğlub oldu, amma bu dağılmış terror qruplaşması indi ideoloji prinsiplərlə deyil, maddi maraq qarşılığında fəaliyyətdədir. Hətta etmədikləri terrorun məsuliyyətini də öz üzərinə götürür ki, bir "brend marka" kimi qalmağa davam etsin. O baxımdan, Moskva terroru İŞİD üçün "reklam" oldu". **İ.İsmayıl hesab edir ki, Azərbaycanda radikallar mövcuddur, nə vaxtsa onları yenidən qızışdıra bilərlər:** "İranın bizə təhdidləri, buradakı terror agenturası, o cümlədən İŞİD misalında bu mənzərəni görmüşük. Eyni zamanda Dövlət Təhlükəsizlik Xidmətinin son əməliyyatını qeyd etmək olar. Amma sərhədimizdə, Şimali Qafqazda bu təhlükənin mövcud olması faktdır. Bu qruplar üçün maddi prinsiplər üstün tutulur, həm də "beyni yuyulmuş" radikallar irəli verilir. Yəni İŞİD sifariş yerinə yetirir, ideoloji faktoru artıq qabartmır, bir növ muzdlu silahlı təşkilata çevrilib. Onlardan da bəziləri inanır ki, terror edib cənnətə düşürlər, əslində isə pul qazananlar bu adamlardan istifadə edirlər. Hətta qlobal güclərin siyasi güc alətinə də çevrilirlər. Çünki terror təzyiq vasitəsidir". **Təhlükəsizlik mütəxəssisinin fikrincə, İŞİD bundan sonra da "reklamı"nı davam etdirə bilər:** "Bu mənada Azərbaycanda əhalinin müsəlman olduğunu və qonşuda təhlükənin varlığını nəzərə alaraq, təhlükəsizlik tədbirlərimizi daha da gücləndirməliyik. İnanıram ki, xüsusi xidmət orqanlarımız bu istiqamətdə lazım olan addımları atacaqlar".

**Hərbi ekspert Azad İsazadənin "Yeni Müsavat"a bildirdiyinə görə, belə təhlükə var, amma İŞİD-in Azərbaycanda maraqları və qüvvələri çox olmamalıdır:** "İndi nə baş verirsə, məsuliyyəti İŞİD-in üzərinə qoyulur, amma bu terror təşkilatının adı simvolikdir, ərazisi, yeri də tam bəlli deyil, eləcə də onlarla işləyən qruplar mövcuddur. Yəni tikintidə olduğu kimi, subpodrat şirkətlər sifarişi götürür, icra edirlər. Yəni İŞİD-lə bağlı qruplar terror edir, müxtəlif şəbəkələr meydana çıxır, amma bu təşkilatın adına yazılır". **A.İsazadənin fikrincə, Azərbaycandan İŞİD-in aktiv vaxtlarında Suriya, İraqa gedənlər oldu, hərbi əməliyyatlarda iştirak etdilər, amma çoxu həbs edilib:** "Hər halda, risk var və ehtiyatlı olmalıyıq. Bizim üçün vacib məsələ Ermənistanın terror törətməsi təhlükəsinin qalmasıdır. Ötən əsrdə də, 19-cu əsrdə də erməni terroru ilə üzləşmişik. Biz daha çox bununla bağlı hazır olmalıyıq. Çünki Ermənistanda da hansısa radikal qruplar terrora cəhd edirlər. Əgər İrəvanda iqtidar dəyişərsə, Azərbaycana qarşı həmin terror qruplarından istifadə oluna bilər". **Postsovet məkanında terror təhlükəsinə gəlincə, hərbi analitik hesab edir ki, Rusiya və onun müttəfiqlərinə qarşı bu addımlar atıla bilər:** "Ukrayna tərəfdən çıxış edən "Rusiya Azadlığı Legionu"nun Belqorodda keçirdiyi əməliyyata Rusiya terror, Kiyev partizan müharibəsi adını verməkdədir. Ona görə burada terminlərə ehtiyatlı yanaşmaq lazımdır. Ümumiyyətlə, "terror" termini indi çox istifadə edilir və biz hər baş verən hadisəni terror kimi təqdim edə bilmərik".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**



## Azərbaycanlıların Rusiyadan geri dönüşü - hökumətin planı varmı...

**Rusiya məhkəməsi yüzlərlə miqrantı ölkədən çıxarıb. Məlumdur ki, Rusiyada milyonlarla azərbaycanlı yaşayır və işləyir. Təbii ki, baş verən terror hadisəsindən sonra bütün miqrantlar kimi onların da ölkədən çıxarılması müzakirə olunur. Rusiyadan azərbaycanlı miqrantların kütləvi axını başlayarsa, onların qəbulu üçün hökumətin planı varmı? Bu, büdcəyə əlavə yük yaradacaqmı?**

**Deputat Fazil Mustafa** "Cebhe.info"ya açıqlamasında bildirib ki, Rusiyada miqrantlara qarşı siyasət həmişə kəskin olub: "Terrordan sonra bu, daha da ağırlaşmaqdadır. Həm də iqtisadi vəziyyət ağırlaşır. Miqrantların xeyli hissəsi hansısa formada Rusiyadan bizneslərini başqa ölkələrə köçürmək barədə düşünür.

Həmçinin müharibənin yaratdığı sıxıntılar da özünü hiss etdirir. Onların kütləvi şəkildə geri dönməsi isə gözlənilmir. Orada böyük infrastruktur yaradıblar, fəaliyyətləri daha çox ora üzərində qurulub. Amma burada da yəqin ki, bizneslərini həyata keçirə bilərlər. İndidən söyləmək olmur ki, kimin nə qədər pulu, nə biznesi var ki, öz işini burada davam etdirə biləcək. Ona görə konkret nəsə demək çətindir".

**İqtisadçı Akif Nəsirli isə bildirib ki, miqrantlara qarşı gedən proses, ögey münasibət onların qazancını azaldır:** "Nəzərə alaq ki, Rusiyada 2 milyona yaxın azərbaycanlı yaşayır. Həmin azərbaycanlıların böyük əksəriyyəti əməkçi miqrantlardır. Birinci növbədə miqrantlara qarşı gedən proses, ögey münasibət miqrantların fəaliyyətini gərginləşdirir, qazancını azaldır, bu azalma da onların Azərbaycandakı ailələrinə təsir edir. Rusiyadan gələn pul hesabına yaşayan ailələr həmin pul kəsiləndə məcbur qalıb burada iş tapacaq, ya ünvanlı sosial yardıma müraciət edəcək. Gələn miqrantlar da həmçinin, bu kimi yollarla pul qazanmağa çalışacaqlar. Miqrantların axını sayəsində yaranan əmək qabiliyyətli əhali artıq Azərbaycanda işsizlik faizinin yüksəlməsinə səbəb olacaq".

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev miqrant axını olarsa, kirayə mənzil bazarında ciddi qiymət artımının olacağını deyib: "İş yerlərinin daha çox Bakıda olması isə həmin kütlənin paytaxta axınını artıra bilər. Bu da kirayə mənzil bazarında ev çatışmazlığına, ciddi şəkildə qiymət artımına gətirib çıxarar".

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024

# "Azərbaycandakı İsrail səfirliyinə hücum etməliyik" çağırışına Bakıdan reaksiya

## Analitik: "Bir ölkə ki, qonşusunun səfirliyinə terror, millət vəkilinə, icra başçısına sui-qəsd təşkil edir..."

**"Sionistlərin region ölkələrindəki diplomatik mərkəzlərindən birini, ən yaxşısı, Azərbaycandakı səfirliyini açıq və birbaşa hədəfə almaqla İsrailə cavab verməyi təklif edirəm".**

"Yeni Müsavat"ın məlumatına görə, İran parlamentinin sabiq üzvü Cəlal Rəşidi Koçi İslam Respublikasının Dəməşqdəki konsulluğuna hücumla bağlı paylaşımında bu səfeh təklifi irəli sürüb. Keçmiş deputat sosial şəbəkə səhifəsində onu da bildirib ki, "sionistlərin İran torpağına hərbi hücumuna istənilən başlıq altında qəti və bənzər cavab verməkdə süründürməçilik, səbr və gecikmə İranın böyük adına, nüfuz və şərəfinə ağır zərbə vurmağa bərabərdir". Onun bu təhdidi güney azərbaycanlılar tərəfindən qəzəblə qarşılanıb. Təbrizin yerli nəşri "Azərəncümən"in Kuçinin təhdid mesajını dərc etməsindən sonra yüzlərlə yerli sosial media istifadəçisi buna cavab yazıb. Kuçinin təklifinə "Bu, İranın İsrail qarşısında acizliyini göstərir, İsrailə cavab verə bilməyənlərin Azərbaycanı hədələməsi gülüncdür", "Azərbaycan Respublikasına hücum Təbrizə hücum deməkdir" və başqa bu kimi cavablar yazılıb.

Qeyd edək ki, İsrail aviasiyası Dəməşqdəki İran konsulluğunun binasına zərbə endirib. İranın Suriyadakı səfiri Hüseyn Əkbəri İsrailin "F-35" qırıcılarından 5 raket atdığını və konsulluq binasının tamamilə darmadağın edildiyini bildirib. Onun sözlərinə görə, iranlı diplomatlar ölüb, dəqiq nə qədər adamın öldüyü dağıntılar tam təmizləndikdən sonra bilinəcək. SEPAH isə artıq iki generalının, 5 zabitinin öldüyünü təsdiqləyib.

Tehranın bunun əvəzində Azərbaycandakı hansısa məkanı hədəf almaq barədə düşünməsi əqli qabiliyyətini itirməsi anlamına gəlir. Dəməşqin qərbində yerləşən İran konsulluğu İran səfirliyi ilə Kanada səfirliyinin düz ortasındadır və demək olar ki, arasında məsafə yoxdur. İsrail zərbə endirdiyi vaxt konsulluq ərazisində SEPAH-ın məşhur briqada generalı Zahidi və müavini, o cümlədən yüksək rütbəli zabitlər orada olub. Belə məlum olur ki, İsrail dəqiq kəşfiyyat məlumatı ilə hərəkət edib, konsulluqda mühüm toplantı olduğunu bilib və iki səfirliyin arasında yerləşən konsulluq binasına ardıcıl 5 olduqca dəqiq zərbə endirib. Ancaq bunun heyfini İsraildən çıxa bilməyənlərin Bakını hədəf alması acizlikdən xəbər verir. Onlardan fərqli olaraq, Azərbaycan aciz deyil və təhdidlərə heç zaman boyun əyməyib. Necə ki bir müddət əvvəl Araz çayı üzərində təlimlərlə, Bakıya hədyanlar səsləndirməklə bizi qorxuda biləcəklərini düşünürdülər, artıqlaması ilə cavabını aldılar. İndisə İsrailin Bakıdakı səfirliyini vurmağa çağırış etmək birmənalı şəkildə təxribatdır. İsrailin başqa ölkələrin ərazilərində də diplomatik korpusu var, niyə məhz Azərbaycanın adı çəkilir?! Misal üçün, İsrailin Ermənistanda da səfirliyi fəaliyyət göstərir. Başıpozuq iranlı eks-deputat nə üçün İrəvanın adını çəkmir? Çünki Tehran rəsmilərinin dediyi kimi, Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir. Azərbaycanı "sionist rejimi" sərhədlərə yerləşdirməkdə ittiham edən fars rejimi aprelin 5-də onun düşmənləri olan - Aİ və ABŞ-ın Paşinyan tərəfindən regiona necə cəlb olunduğunu görmək istəmir, di gəl, Bakıda olan İsrail səfirliyini vurmağa çağırırlar.



**Analitik Elxan Şahinoğluna görə, Cəlal Rəşidi Kuç İsraildən intiqam alınması vacibliyindən danışarkən absurd və təxribatçı təklif irəli sürüb:** "Onun cümləsindəki "daha yaxşısı" söz birləşməsi atmacadır, yəni yenə də İsraillə Azərbaycan arasındakı tərəfdaşlığa işarə edirlər. Azərbaycanın İrandakı səfirliyinə terror hücumu azmış kimi indi də İsrailin Azərbaycandakı səfirliyinə terror həyata keçirməyə çağırış edirlər. Buna ciddi yanaşmaq lazımdır. Bu cür təxribatçı çağırışlara İranı idarə edənlər sakit yanaşırlarsa, deməli, elə özləri də həmin sabiq deputat kimi düşünürlər. Bütün hallarda Azərbaycanda təhlükəsizlik tədbirlərini gücləndirməyə ehtiyac var".

**Politoloqun əlavələrinə görə, ABŞ-ın İran üzrə elçisi Abram Paleyin Azərbaycana səfəri və Bakıda keçirdiyi görüşlər Yaxın Şərqdə baş verən hadisələr, Tehranın Cənubi Qafqazdakı rolu ilə bağlıdır:** "Amerikalı diplomat Prezidentin köməkçisi Hikmət Hacıyevdən sonra Azərbaycanın İrandakı səfiri Əli Əlizadə ilə də görüşübsə, əsas mövzunun məhz İranın siyasəti olduğu bəllidir. Vaşinqton Tehranın bölgədəki planlarından narahatdır. ABŞ elçisinin İsrailin Azərbaycandakı səfiri Corc Diklə görüşməsi və İran rejiminin regionda sabitliyi pozan davranışları barədə müzakirələr aparması isə İsrail-İran qarşıdurması ilə bağlıdır. Vaşinqton hesab edir ki, Tehran İsrailin İranın Suriyadakı konsulluğuna raket hücumunun intiqamını almaq üçün Cənubi Qafqazdakı "imkanlarından" da istifadə edə bilər. Təsadüfi deyil ki, iranlı keçmiş deputatlardan biri İsrailin Azərbaycandakı səfirliyinə hücum təşkil etməyə çağırıb".

**Ekspertin sözlərinə görə, bu çağırış Azərbaycanla yanaşı ABŞ və İsraili də ciddi narahat edib:** "Bir ölkə ki, qonşu ölkənin millət vəkilinə qarşı sui-qəsd təşkil edir, kəşfiyyat şəbəkəsi vasitəsilə icra hakimiyyətinin başçısını öldürmək istəyir, həmin ölkədən başqa təhlükəli addımlar da gözləmək mümkündür. Ona görə mümkün təhlükəyə qarşı mübarizədə xəbərləşmə vacibdir. Bununla yanaşı, Vaşinqton İran-Ermənistan münasibətlərindən narahat olmalıdır. Çünki məhz Ermənistan İranla eyni mövqedən çıxış edir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# ABŞ səfirinin "hamısını azadlığa buraxın" bəyanatı

## YAP-çı deputat: "Bunu ölkəmizin daxili işlərinə qarışmaq kimi qəbul edirəm"

**ABŞ-ın Bakıdakı səfiri Mark Libbi həftəsonu Azərbaycanda saxlanılan jurnalistləri təmsil edən vəkillərlə görüşüb. "Birləşmiş Ştatlar mətbuat azadlığını dəstəkləyir və Azərbaycan hökumətini fundamental azadlıqlarından istifadə etdiklərinə görə həbs edilən bütün şəxsləri azad etməyə çağırır". Bu barədə "Turan" ABŞ səfirliyinə istinadən xəbər yayıb.**

Bu çağırışa Azərbaycan hökumətinin təmsilçilərindən hələlik münasibət almaq mümkün olmayıb.

Əldə olunan məlumatlardan belə nəticə çıxır ki, yaxın vaxtlarda istintaq Qərb ölkələrinin Azərbaycandakı səfirliklərinin həbs edilənlərlə bağlı qrant əlaqələri haqda faktlar açıqlayacaq. Bəzi səfirliklərin qrant qaçaqmalçılığında iştirakı üzrə sənədlər ictimailəşdiriləcək.

Müşahidələr göstərir ki, ABŞ başda olmaqla, Qərb mərkəzləri Azərbaycanda ictimai rəyi çaşdırmaq üçün çox sayda təsir agentləri yetişdiriblər. İz azdırmaq üçün onların adlarını "KİV qurumu", "QHT", "Siyasi partiya" qoyublar. Yeni öz agentlərini məsuliyyətdən yayındırmaq üçün bir növ hüquqi platforma yaradıblar. Qrant vermək adı altında onlar üçün "qanunu maliyyə mənbəyi" təmin ediblər. Azərbaycan 2000-ci illərdən başlayaraq, bu şəbəkəni qismən ifşa edib. Zərərsizləşdirmək üçün qanunvericiliyi yeniləyib. 2014-cü ildə qrant alma prosedurlarını sərtləşdirib. Digər zəruri tədbirlər görüb. Amma indi bəlli olur ki, Azərbaycan ehtiyat tədbirləri gördüyü kimi, "qrant şəbəkəsi" də çevik tərpənib. Qeyri-leqal vəsaitin ölkəyə gətirilib agentura şəbəkəsinə çatdırılması üçün son 6 il ərzində tamamilə yeni metodlardan istifadə ediblər. Bu təşkilatlar öz fəaliyyətlərini Azərbaycan qanunları əsasında deyil, ABŞ-dan gələn direktivlər əsasında qururlar. Maliyyə xərcləri kimi, informasiya tezislərini də Qərbdən alırlar. Problem ondadır ki, hazırkı dönəmdə Qərbdən gələn həmin tezislər milli maraqlarla daban-dabana ziddir. Məhkəmə hökmü olmadan onların azadlığa buraxılması tələbi nə qədər demokratik davranışdı?

**Deputat Azər Badamov bunu bir ölkənin daxili işlərinə qarışmaq kimi qəbul edir:** "ABŞ səfiri Mark Libbinin "Birləşmiş Ştatlar mətbuat azadlığını dəstəkləyir və Azərbaycan hökumətini fundamental azadlıqlarından istifadə etdiklərinə görə həbs edilən bütün şəxsləri azad etməyə çağırır" ifadəsinin işlədilməsi ölkəmizin daxili işlərinə qarışmaq kimi qəbul edirəm. Azərbaycanda söz və mətbuat azadlığı təmin olunub. Amma bu o demək deyil ki, təmin olunmuş azadlıqlardan Qərbin çirkin niyyətlərini həyata keçirmək üçün istifadə olunsun. Azərbaycan dövləti mətbuat azadlığı, QHT və Siyasi partiyalarla bağlı çox aydın qanunvericilik bazası yaradıb. Yaradılmış qanunvericilik ölkəmizdə təmin olunmuş siyasi sabitliyi və qazanılmış uğurlarımızı əlimizdən almaq istəyən Qərb institutlarının hərəkət imkanlarını məhdudlaşdırıb. Belə ki, onlar ölkəmizə qarşı çirkin niyyətlərini həyata keçirmək üçün yaratdığı agentura şəbəkəsinin maliyyələşdirilməsinin qarşısını alıb. Amma ABŞ səfirinin qeyd etdiyi şəxslər gizli yollarla maliyyələşdirilir və mətbuat, QHT və siyasi partiya adından istifadə edərək hakimiyyətə qarşı qərəzli informasiyalar yaymaqla təxribat əməllərini həyata keçirirlər. Azərbaycan hüquqi dövlətdir və hər bir şəxsin hərəkətləri qanun çərçivəsində olmalıdır. Bu baxımdan qanunları kim pozursa, təbii ki, qanun qarşısında cavab verməldir. ABŞ səfirinin çağırışı bir növ qanunu pozmuş şəxslərin azadlığa buraxılmasına çağırış hesab edirəm. Təbii ki, istintaq prosesi yekunlaşanda məhkəmə həmin şəxslərin buraxılıb-buraxılmayacağı ilə bağlı qərar verəcəkdir. Saxlanılan şəxslərdən qanunu pozma halları müşahidə olunmazsa təbii ki, sərbəst buraxılacaq. Amma qanunu pozanlar cinayət məsuliyyətinə cəlb olunmalıdır".



**Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri, hüquq müdafiəçisi Sahib Məmmədov bu istiqamətdə ABŞ-la Azərbaycan arasında bir sıra diqqətçəkən müqayisələr apardı:** "Biz onlardan söz azadlığı adı altında müxtəlif bəhanələrlə ölkəmizə qarşı təzyiqləri dayandırmağı tələb edirik. Ümumiyyətlə, Amerikada Konqres ətrafında aksiya keçirənlərə yüksək cəzalar verilib. Müqayisə üçün deyim ki, bizdə Milli Məclisə hücum edənlərin əksəriyyətinə inzibati cəzalar verildi. Amma orada ağır dövləti cinayətlərdə ittiham olunub uzun müddətə həbs edilənlər var. Bütün bunların fonunda Amerikanın bizə qarşı addımlarını təxribat xarakterli addımlar kimi qəbul edirik. Eyni zamanda bu, hüquqi baxımdan da düzgün deyil. Saxlanılan şəxslərlə bağlı istintaq gedir. İndiki halda onların vəkilləri həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətlər verirlər. Həbsin başqa qətimkan tədbiri ilə dəyişdirilməsi üçün istintaq, məhkəmə qarşısında vəsatətlər qaldırıla bilər. Bunu da vəkillər etməlidir və edirlər də. Bu da normal bir prosesdir. Hüquqi prosessual hərəkətlər sayıla bilər. Bunu da ABŞ səfiri desə də, deməsə də, vəkillər edirlər. Bu, onların peşə vəzifəsidir. Həbs edilən və hansı ki, barələrində məhkəmə hökmü yoxdur, onlar barəsində indiyə qədər vəkilləri tərəfindən həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətlər verilib. Bu proses davam edir. Yaxşı olar ki, Amerika öz daxilinə baxsın, cəza sisteminə nəzər yetirsin. Uşaqlara, qadınlara qarşı ölüm cəzası bu ölkədə tətbiq olunur. Penitensiar sistemi dünyanın ən qəddar sistemidir. ABŞ-da yüz minə düşən həbsdə olanların sayı dünya üzrə rekorddur. Məsələn, bizdən 3 dəfə yarımdan çoxdur. Bizdə 200 nəfərə yaxındır, onlarda 600-dən çoxdur. Yaxşı olardı ki, səfir ölkəsinin bu məsələlərə diqqət ayırmasına nəzər salsın. Sonra bizim kimi ölkələrdən danışsın".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# NATO "müşahidəçi" adı altında Azərbaycan sərhədində

## Avropa İttifaqının Ermənistandakı missiyası hərbi blokun platformasına çevrilir; hətta Kanada və ABŞ-dan hərbi qulluqçular oraya göndərilir - Bakı üçün hansı təhlükə var?

**"Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyası NATO missiyasına çevrilir". "Yeni Müsavat" xatırladır ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov "İzvestiya"ya müsahibəsində bildirib. Lavrovun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan şəxsən Avroittifaq missiyasını Ermənistana dəvət edib:**

"Paşinyan həmin vaxt Azərbaycana bunun cəmi 2 ay olacağını vəd edirdi. Lakin 2 aydan sonra Aİ Azərbaycana məhəl qoymadan bu missiyanı ikiqat artırdı. İndi Norveç, Kanada və ABŞ-dan hərbi qulluqçular hələ də oraya göndərilir və Avropa İttifaqının missiyasını Şimali Atlantika Alyansının missiyasına çevirirlər". Göründüyü kimi, Aİ üzvü olmayan ölkələr də müşahidə missiyası adı ilə regiona yerləşirlər. Bunun davamı olaraq aprelin 5-də Brüsseldə hərbi pakt imzalansa, o zaman Lavrovun dediklərində daha böyük həqiqət payı ola bilər. Çünki rəsmi İrəvan təhlükəsizlik sahəsində yeni müttəfiqlər axtarışına çıxdığını gizlətmir.

Yada salaq ki, iki gün sonra Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyanla ABŞ dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Leyen arasında keçiriləcək görüşdə Ermənistanın "təhlükəsizliyinin gücləndirilməsi" adı altında hərbi paktın əldə edilməsi planlaşdırılır. Ayrı-ayrı ölkə hərbçilərinin regiona gəlməsi və Ermənistanda toplanması isə qətiyyən Azərbaycanın maraqlarına uyğun deyil. Ermənistanın öz təhlükəsizliyini təmin etmək üçün Avropa İttifaqı və ABŞ-ı seçməsi rəsmi Bakını həm də ona görə narahat edir ki, son 20 ildə ABŞ və Aİ hara gedirsə və ya kimə təhlükəsizlik qarantiyası verirsə, orada münaqişə baş verir. Yəni həmin ölkənin, regionun təhlükəsizlik arxitekturası xaraba qalır.

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Aİ missiyasının Azərbaycanla sərhədə dəvət edilməsinin səbəblərini izah etməyə çalışıb.** "Biz gördük ki, Avropa İttifaqı mülki missiya göndərməyə hazırdır və sərhəddə vəziyyət xeyli yaxşılaşıb, onların mövcudluğu regionda sülhə və Ermənistanın bütövlüyünə böyük töhfə verir", - Mirzoyan belə əlaqələndirib. Onun sözlərinə görə, bir neçə onilliklər ərzində mövcud olan təhlükəsizlik mexanizmləri işləməyib. "Məhz bu səbəbdən biz Avropa İttifaqından gəlib vəziyyəti müşahidə etməyi xahiş etməli olduq", - deyə diplomat fikrini yekunlaşdırıb. Bundan əvvəl Mirzoyan bildirib ki, Ermənistan Əfqanıstanda əməkdaşlıq və sülhməramlı əməliyyatlarda iştirak etməsinə baxmayaraq, hazırda NATO-ya üzv olmaq istəmir. Bütün bu deyilənlərin fonunda, Moskva İrəvanın sözlərinə inanmır. Bu baxımdan, Ermənistandakı Aİ missiyasının NATO missiyasına çevrilməsi nə dərəcədə böyük təhlükədir?

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyir ki, bölgəyə real olaraq təhlükə var. Onun qənaətinə görə, Azərbaycan öz sərhədlərini təhlükəyə salmamaq üçün mühüm adekvat hərbi addımlar ata bilər:** "Bunu Ermənistanın arxasında olan qüvvələr, Ermənistanla təhlükəsizliklə bağlı pakt imzalayanlar da bilsin. Ümumiyyətlə, bu hadisələr bir daha göstərir ki, əslində kim kiminlə hansı münasibətlərə malikdir. Publika qarşısında kimlərsə bir-biri ilə vuruşa bilər, amma əslində nələr baş verir, biz bunu çox yaxşı bilirik. Ermənistan tərəfindən atılan addım bölgə üzrə sülhə ciddi şəkildə zərbədir. Nikol Paşinyan düşünür ki, öz aləmində bununla Zəngəzur və Göyçəni qoruyacaq və Azərbaycan Ordusunun üzərinə hücum edəcək. Lakin bilsinlər ki, onların taleyi bəllidir. Qərb də bilsin ki, sərhədyanı ərazilərdə kimin hansı məntəqəyə malik olması ilə bağlı müzakirələr var. Hələ o məsələlər həllini tapmadan, Ermənistanın sərhədləri ilə bağlı təhlükəsizlik haqqında pakt vermək qeyri-ciddidir".

**Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, əslində Ermənistanın "müqavimətinin gücləndirilməsi" tədbirlərinin Qərbin Rusiyanı bu ölkədən çıxarmaq və Cənubi Qafqazda Moskvaya qarşı yeni cəbhə açmaq planının tərkib hissəsi olduğu bəllidir:** "İrəvanın Aİ müşahidəçilərini bölgəyə gətirməsi, Fransa tərəfindən silahlandırılması kimi ayrı-ayrı komponentlər ABŞ-Aİ hərbi paktı ilə bütövləşə, Qərbin kollektiv dəstəyinə çevrilə bilər. Bu vəziyyət bütövlükdə regiona qeyri-stabillik vəd edir. Çünki Ermənistanın Qərbin kollektiv hərbi dəstəyini əldə edəcəyi təqdirdə iki istiqamətdə hərəkət edəcəyi ehtimalı böyükdür".




**Təhlilçi iki istiqaməti incələyir:** "Rusiyadan sürətlə xilas olmaq - bu məqsədlə rus hərbçilərinin ölkədən çıxarılması istiqamətində addımlar atacaq, artıq sərhədçilərin çıxarılması gündəmdədir. Bundan əlavə, Qərbin kollektiv dəstəyini alan Ermənistanın Azərbaycana qarşı revanşizm siyasətinə yenidən qayıtması riski də var. Ən azı rəsmi İrəvan Bakı ilə indiki kimi "dil tapmağa çalışan" mövqe sərgiləməyəcək. Bakı indi də güclü tərəfdir, amma Aİ və ABŞ-ın İrəvana birgə dəstəyi bölgədəki tarazlığı əleyhimizə çevirə, yaxud ən azı bu tarazlığı poza bilər. Aydındır ki, bu dəstəyi hiss edən Ermənistan həm kommunikasiyanın açılması, həm də sərhədin delimitasiyası məsələsində konstruktiv mövqedən yayınacaq və öz şərtlərini diktə etməyə çalışacaq".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Sərhəddə erməni təxribatının səbəbi

## Brüsseldə hərbi paktın imzalanmasını arqumentləşdirmək üçün regionda gərginlik atmosferi yaradılır

**Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan istiqamətindəki mövqeləri atəşə tutulub. Belə ki, aprelin 1-i saat 22:00-dan 22:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad və Şahbuz rayonunun Biçənək yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**



"Bu insident gözlənilən idi. Məsələ ondadır ki, son zamanlar şərti sərhədin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə olunurdu. Rəsmi İrəvan bunun hərbi təlimlər məqsədilə həyata keçirildiyini iddia etsə də, şərti dövlət sərhədində hərbi insidentin baş verməsi gözlənilirdi". **Politoloq Turan Rzayev** açıqlamasında belə deyib. Onun fikrincə, ümumiyyətlə, hazırda Cənubi Qafqazdakı siyasi vəziyyət regionda marağı olan gücləri narahat edir: "Belə ki, Ermənistanla Azərbaycan arasında sülh prosesi, habelə sərhədlərin delimitasiya prosesi uğurla davam edir. Etiraf etmək lazımdır ki, son insidentə baxmayaraq, sülh istiqamətində mühüm addımlar atılıb. Ən önəmlisi danışıqlar masasında 60-70%-i razılaşdırılan bir sülh sənədi var.

Rəsmi Bakının sülhdə maraqlı olması, maksimum konstruktiv mövqe sərgiləməsi və gərginlikdən yayınması başda Fransa olmaqla, regionda maraqlı olan qüvvələri narahat edir. Sülhün əldə edilməsi bu ölkələrin regiona müdaxilə, buranı təsirdə saxlamaq imkanlarını sıfırlayır.

Azərbaycanın müstəqil xarici siyasət yürütməsi, uğurlu iqtisadi layihələr həyata keçirməsi, daxili sabitliyin olması Bakıya təzyiq imkanlarını azaldır. Belə olan təqdirdə zəif iradəli və kövrək hakimiyyətə malik Ermənistan üzərindən regionda sabitliyi pozmağa çalışırlar.

Aprelin 5-də Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Leyenlə Brüsseldə planlaşdırılan görüşü də buna hesablanıb. Görüşün keçirilməsinə 2 gün qalıb və Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan istiqamətindəki mövqeləri atəşə tutulub. Bu bir daha onu deməyə əsas verir ki, Aİ, ABŞ və Ermənistan arasında Brüssel görüşü fərqli motivdə təqdim edilsə də, reallıqda hərbi pakt imzalanacaq. Bu paktın imzalanmasını arqumentləşdirmək üçün isə hazırda regionda gərginlik atmosferi yaradılır.

Proseslər geniş mənada Qərblə ABŞ arasında Cənubi Qafqazda nüfuz mübarizəsi olsa da, əslində mübarizə Azərbaycan və Ermənistan üzərindən aparılır. Qərb faktiki olaraq Ermənistanı öz tərəfində, Azərbaycanı isə Rusiyanın yanında göstərməyə çalışır. Görünür, Qərb bu təəssüratı yaradıb Bakıya təzyiq istəklərinə nail olmaq istəyir".

**Bəs rəsmi Bakının mövqeyi necədir? Politoloqun fikirləri:** "Biz Qərb-Rusiya qarşıdurmasının tərəfi deyilik. Azərbaycan üçün prioritet məsələ sülh müqaviləsinin imzalanması, delimitasiya prosesinin davam etməsidir. Bununla belə, Ermənistan tərəfinin atəşkəsi pozma cəhdləri davam edərsə, rəsmi Bakı adekvat cavab verəcək. Nəzərə almaq lazımdır ki, iki ölkə arasında sülh müqaviləsi imzalanmayıb və de-fakto müharibə vəziyyəti davam edir".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024

# Paşinyan ermənilərlə Azərbaycan dilində danışmağa başladı

## Qazağın işğal altındakı 4 kəndinin qaytarılması yubanır - İrəvan aprel ayında həmişə "dərs almaq" istəyir

**Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin müxtəlif istiqamətlərində erməni silahlı qüvvələrinin şəxsi heyətinin və hərbi texnikasının cəmləşməsi qeydə alınıb. Məlumatlara görə, erməni qoşunları əsasən Naxçıvan istiqamətində cəmləşdirilir.**

Aprelin 1-i Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad və Şahbuz rayonunun Biçənək yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Qazaxla sərhəddə də gərginlik gözləntisi var. Bugünlərdə Ermənistanın sabiq müdafiə naziri, hazırda müxalifətdə olan "Hayastan" parlament fraksiyasının rəhbəri Seyran Ohanyan Qazaxla sərhəddəki Tavuş bölgəsinə səfər edib, orada görüşlər keçirib. Məlumatlara görə, Ohanyan əhalini Qazağın kəndlərinin Azərbaycana təhvil verilməsinə qarşı çıxmağa çağırıb, hərbçilərə mesaj ünvanlayıb. Hərbçilərin və əhalinin "silaha sarılacağıq", "döyüşəcəyik" kimi fikirlər səsləndirdikləri qeyd olunur. Azərbaycan Müdafiə Nazirliyi qoşunların sərhədə cəmləşdirilməsi ilə bağlı Ermənistan hərbi-siyasi rəhbərliyinə xəbərdarlıq edib: "Xəbərdarlıq edirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq. Bir daha bəyan edirik ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcək".

Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə 4 kənd mövzusuna toxunub. "Mülki müqavilə" partiyasının təşəbbüs qrupu ilə görüşündə Paşinyan Qazağın işğal altındakı 4 kəndinin Azərbaycan dilində olan adlarını sadalayıb - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı. Onun sözlərinə görə, Ermənistanda heç vaxt belə adlar altında kəndlər olmayıb. Paşinyan qeyd edib ki, Ermənistan hökumətinin adıçəkilən kəndlərə heç vaxt iddiası olmayıb. "Mən bunu açıq şəkildə qeyd etmək istəyirəm və bizim siyasi mövqeyimiz ondan ibarətdir ki, Ermənistanın beynəlxalq səviyyədə tanınmış sərhədlərindən kənarda heç bir əraziyə, o cümlədən Azərbaycanın qeyd etdiyi kəndlərinin ərazilərinə iddiası yoxdur", - Paşinyan bildirib. Erməni baş nazir deyib ki, rəsmi İrəvan həqiqətən də Azərbaycanla sərhədi dəqiqləşdirmək istəyir, delimitasiya və demarkasiyaya hazırdır. Hazırda Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 7 kəndi var: Qazağın eksklav olmayan 4 (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli, Qızılhacılı) və eksklav olan 3 (Yuxarı Əskipara, Sofulu, Barxudarlı) kəndləri, eləcə də Naxçıvanın eksklav olan 1 (Kərki) kəndi. Proseslərin perspektivi haqda nə demək olar? Əməliyyata gərək olacaqmı? Paralel şəkildə erməni ordusunun şərti sərhəddə cəmlənməsi İrəvanın məkrli mövqe sərgilədiyini göstərmirmi?



"Ermənistan Azərbaycanla sərhəddə hərbi texnikanın və şəxsi heyətin cəmləşməsini "orduya yeni cəlb olunmuş sürücülərin təlim yürüşü" kimi təqdim etməyə çalışır və şübhəsiz ki, bu, rəsmi İrəvanın növbəti yalanından başqa bir şey deyil. Çünki əgər söhbət həqiqətən də "təlim yürüşü"ndən gedirsə, o zaman bunun üçün Ermənistanın digər ərazilərində də yer tapmaq olardı". **Siyasi şərhçi Elçin Mirzəbəyli** bunu "Yeni Müsavat"a açıqlamasında belə deyib. Ekspert məntiqə uyğun olaraq sual etdi və əsaslı arqumentlərlə cavablandırdı: "Maraqlıdır, nədən Ermənistan, məsələn, İranla sərhəddə "təlim yürüşü" keçirmir? Məgər "təlim yürüşü" üçün Azərbaycanla həmsərhəd bölgə xüsusi olaraq müəyyənləşdirilib? Göründüyü kimi, İrəvanın iddialarının, hər zaman olduğu kimi, məntiqi izahı yoxdur. Amma maraqlıdır ki, Avropa İttifaqının Ermənistandakı, artıq hərbiləşdirilmiş missiyasının müşahidəçiləri, hətta Ermənistanın təqdimatında yer alan "təlim yürüşü" iddiasını da təkzib edirlər. Missiyanın müşahidəçilərinin açıqlamasında qeyd olunur ki, Ermənistan-Azərbaycan sərhədində hər hansı bir hərəkətlilik baş verməyib. Ermənistanın "təlim yürüşü" kimi təqdim etdiyi faktı isə rəsmi İrəvanın növbəti təxribatı kimi də qiymətləndirmək olar. Ermənistan ordusunun Naxçıvan istiqamətində atəşkəsi pozması da sübuta yetirir ki, İrəvan hərbi qarşıdurma yaratmaqda maraqlıdır və diqqəti Tavuş istiqamətindəki hərəkətlilikdən yayındırmağa çalışır. İrəvan Qərbin ötürdüyü iki əsas tezisi - "Azərbaycanın müharibəyə hazırlaşdığı"nı, "Ermənistanın isə müdafiəyə ehtiyacı olduğu"nu bu qəbildən olan təxribat xarakterli addımlarla təsdiqləməyə və aprelin 5-də Brüsseldə keçiriləcək görüşdə ABŞ və Aİ ilə imzalamağı hədəflədiyi "hərbi pakt"ın zəruriliyini sübuta yetirməyə, bunun üçün süni bəhanələr yaratmağa çalışır". **E.Mirzəbəyli bildirdi ki, indi Ermənistan üçün əsas hədəf Brüsseldə ABŞ və Avropa İttifaqı ilə hərbi paktın imzalanmasına nail olmaqdan və bu paktın, Qərbin "Ermənistanın təhlükəsizliyinə təminatı" iddiaları müstəvisində işə düşməsinə, bölgədə regiondankənar qüvvələrin hərbi iştirakına zəmin hazırlamaqdan ibarətdir:** "Bu baxımdan, İrəvan nəyin bahasına olursa-olsun "real hərbi ekskalasiya" görüntüsü yaratmağa cəhd göstərir. Bu xüsusda Qərblə yanaşı İranın da davranışlarına diqqət yetirilməsinin zəruri olduğunu düşünürəm. Baş verənlərin fonunda Tehranın tamamilə sükuta bürünməsi maraq doğurur. İran bölgədə Azərbaycan və Türkiyənin üstün mövqelərinin zəifledilməsi, Türk Dövlətləri Təşkilatının güclənməməsi üçün hətta şeytanla belə əməkdaşlığa hazır görünür. Məlum olduğu kimi, ABŞ və İran qarşılıqlı olaraq, bir-birilərini "böyük şeytan" adlandırırlar və görünür, hər iki ölkə, qarşılıqlı olaraq, bir-birinə ünvanladıqları "epiteti" sonunadək qəbullanıblar". **Analitik olduqca ilginc məqama da diqqət çəkdi:** "İranın indiki hakimiyyətinin formalaşması və Tehran hökumətinin "islam inqilabı kimi" dəyərləndirdiyi hadisələrin inkişafında ABŞ-ın iki prezidenti ilə əməkdaşlığın yer aldığı barədə çoxsaylı faktlar var. Mərkəzi Kəşfiyyat İdarəsinin 2016-cı ildə məxfilikdən çıxardığı sənədlərdə Xomeyninin, hələ Tehranda ev dustağı olduğu zaman kəsiyində, 1963-cü ildə, Kennedenin qətlə yetirilməsindən iki həftə öncə ona ünvanladığı məktubdan söz açılır. Digər məktub isə 1979-cu ilin yanvarında Kartera ünvanlanıb və hər iki məktubda ABŞ-ın maraqlarının qorunmasına zəmanətdən, qarşılıqlı əməkdaşlıqdan söz açılır. Bu aspektdən və daha sonrakı, SSRİ-nin süqutu öncəsi və sonrası yazışmalardan belə anlaşılır ki, Tehran həlledici məqamlarda Qərbin maraqlarının ifadəçisi kimi çıxış etməyi "bacarır"".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı da rəsmi İrəvanın avantürist siyasətinə diqqət çəkdi:** "Ermənistanın baş naziri Nikol Paşinyan Artaşat bölgəsində partiyadaşları ilə görüşündə Azərbaycanla sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin və hərbi texnikasının, o cümlədən artilleriya qurğularının və zirehli texnikasının intensiv cəmləşməsindən təkzib edib və Ermənistanın gərginliyi artıracaq hər hansı addımdan geri duracağını deyib. Eyni zamanda o, Qazağın kəndlərinin geri verilməsi ilə bağlı mövqeyini təkrarlayıb. Paşinyan deyib ki, Ermənistan öz ərazisindən Azərbaycana torpaq verməyə hazırlaşmır, sərhədin bu hissəsində demarkasiya proseslərinə ona görə başlayıblar ki, problem bu hissədədir. Əlbəttə, Paşinyanın bu fikirləri də ona qarşı olan qüvvələrin "qəzəbini " azaltmayıb. 5 aprel üçtərəfli Avropa İttifaqı-ABŞ-Ermənistan görüşü ərəfəsində rusiyayönümlü qüvvələrin ökədə qarşılıqlı yaratması cəhdlərini də Paşinyan təxribatçılıq adlandırıb. Həmin görüşün baş tutmaması, pozulması üçün bu qüvvələrin ölkədə sabitliyin pozulmasına qədər gedəcəkləri qənaəti var. Paşinyanın Qərbə doğru vektor dəyişikliyinə getməsini ölkənin böyük bir hissəsi qəbul etmir. Rusiyanın da Ermənistanın apardığı siyasəti sərt və rəsmi ağızlardan tənqid etməsi içəridəki anti-Paşinyan qüvvələri ürəkləndirib. Paşinyanın baş nazirlikdən uzaqlaşdırılması kimi qeyri-legitim addımların atılacağı ehtimalları da var. Parlament müxalifətinin buna gücü çatmır. Onu gəldiyi yolla göndərmək təşəbbüsləri isə hələ ki ciddi nəticə vermir. Ermənistanda Paşinyanın elan etdiyi və adlarını azərbaycanca sadaladığı və heç vaxt Ermənistanın xəritəsində yer almayan Qazağın eksklav olmayan 4 - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli, Qızılhacılı kəndlərinin adını çəkir. Bunlarla Azərbaycan kifayətlənəcəkmi? Əlbəttə yox. 1990-cı illərdə qanlı döyüşlər nəticəsində işğal edilmiş o biri kəndlər də verilməlidir". **Q.Çaxmaqlının sözlərinə görə, Paşinyanın da, Ermənistan cəmiyyətinin də qorxusu budur ki, Azərbaycan ordu olaraq oraya yerləşəndən sonra həmin üç kəndi də - Yuxarı Əskipara, Sofulu, Barxudarlı kəndlərini də tələb edəcək:** "Paşinyan inandırmağa çalışır ki, həmin üç kəndin məsələsi Ermənistanın 29,8 min kvadratkilometrlik ərazisinə daxildir. Amma bunun belə olmadığını Azərbaycan tərəfi hər addımda dilə gətirir. Həmin kənd əhalisinin və kənardan gətirilən hərbi-terrorçu qüvvələrin dirənişini təşkil etmək üçün Ermənistan gizli tədbirlər görür. Ermənistan mətbuatında buraya qüvvələrin və silahlı qrupların yığışması faktı göstərir ki, Ermənistan mümkün eskalasiyaya gedəcək. Azərbaycan XİN-in yaydığı bəyanatda da təsadüfi vurğulanmayıb ki, bunun məsuliyyəti Ermənistan hakimiyyətinin və onun havadarlarının üzərinə düşəcək. Havadarları isə konkret halda Fransa və İrandır. Çünki bu bölgəni silahlandırmaq, muzdlu adamlara təlimlər keçmək üçün emissarların varlığı artıq bilinməkdədir. Terrorçu, qeyri-qanuni könüllü dedikləri qruplar - Sasna Tsrer, VOMA, Yerkrapa Bever artıq burada, Azərbaycanla şərti sərhəd bölgəsində yerləşdirilib. Sıx-sıx sülhdən danışan ölkə faktiki müharibəyə hazırlaşır. Bunu belə dəyərləndirmək lazımdır".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 57 (8430) 3 aprel 2024



# Əgər bir yaz gecəsində alim

Zamin HACI
zaminhaci@gmail.com

**Ünlü italyan yazıçısı, ədəbiyyatda postmodernizm janrının nümayəndələrindən İtalo Kalvino-nun "Əgər bir qış gecəsində yolçu" adlı romanı var. Roman belə başlayır ki, adam kitab dükanından İtalo Kalvinonun "Əgər bir qış gecəsində yolçu" adlı romanını alır, lakin evdə baxır görür kitab brakdır, içinə başqa əsər qoyublar. Romanı dükana qaytarır, aldığı təzə kitab da səhv çıxır və sairə - bu minvalla əhvalat 10 dəfə təkrar olunur.**

Roman çox qəliz quruluşdadır, açığı, mən oradan bir şey qanmamışam, yadımda da əsərin adı qalıb.

Ancaq elə romanın adı yadımızda qalıbsa, bunun özü qazancdır. Yaxşı da səslənir. Bəzən ədəbiyyatda belə şeylər olur, məsələn, camaat əziyyət çəkir, eşşək boyda kitab yazır, axırda bütün dünya o əsəri epiqrafındakı aforizmlə xatırlayır, heç kitabı da oxumurlar: "Xoşbəxt ailələrin hamısı bir-birinə və sairə" - özünüz mövzunu bilirsiniz, uzatmıram. "Polkovnikə məktub yoxdur", "Cinayət və cəza", "Səfillər", "Alçaldılmış və təhqir edilmiş insanlar", "Gün var əsrə bərabər" və sairə - adıyla tanınan, adı sağa-sola, yeri gəldi-gəlmədi işlənən, lakin məzmununu çoxunun bilmədiyi belə kitablar var (məsələn, Anar müəllim də "tələsmə, Zaur" ifadəsi ilə adını ədəbiyyat tarixinə qızıl-qırmızı hərflərlə həkk etdirmişdir).

Bu uzun girişdən sonra məni son günlər düşündürən sualı yazmaq istəyirəm, çünki o da mənim ağlıma təxminən Kalvinovari gəlmişdir: "Əgər bir alim 77 yaşında küçədə qalıbsa, evi yoxdursa, ya o alimin elmi boş şeydir, ya da xalqın, dövlətin alimə və elmə hörməti 77 qəpiklikdir".

Üçüncü versiya mümkündürmü? Əlbəttə. Məsələn, ola bilər alimin evi varmış, lakin qəddar xarici qara qüvvələr onu ələ keçirərək kişinin oğlunu küçəyə atıblar. "Tfu, sizin üzünüzə" - klassikimizin başqasından sitat gətirsək. (Onun da qaz limiti bitibmiş, uşaqlarını əlyazmasını yandıraraq isidirmiş. Ah-vay. Kolumbiyada yaşasa sobanı dollarla qalayardı. Görürsən, yazıçıya qəti hörmət qalmayıb. Belə hörmətsiz işlərdə biz hətta qətiyyətliyik).

Yeri gəlmişkən, gəzən şaiyələr bu versiyamızın həqiqət imkanlarını dəhşətli dərəcədə artırır: deyirlər şanlı alimimizin bir qızı vardır və o, Fransada yaşamaqdadır! Dəhşətdir. Sanki ayrı yer yox imiş. Fransadan nə gözləmək olardı?

Dördüncü versiya budur ki, alim ulduzları sevir, ona görə açıq havada gecələmək qərarına gəlmişdir. Bizim Şamaxı Astronomik Rəsədxanasında hazırda bu istiqamətdə ciddi araşdırmalar aparılır, Ramazan ayı haçan bitəcək, Ayı neçənci gün görməyə borcluyuq, küçədə yatmaq professorluğu pozurmu və sairə irfani suallara cavab axtarılır. Hörmətli alim küçədə qalır ki, Ayı hamıdan birinci görsün. Onun dini kitabları tərcümə eləməyi bu ehtimalımızı gücləndirir.

Janrın özəlliyi tələb edir ki, mən versiyaları aparıb 10-a çıxarım, lakin burada dayanıram, istintaq orqanlarına mane olmaq istəmirəm.

Maraqlı işlər çoxdur. Dünən AFFA-da iclas olub, yeni sədr seçilib. İnşallah, köhnə sədrimizi yüksək bacarıqlı şəxsiyyət olması üzündən Səudiyyə Ərəbistanı alar. Dünya futbolunda belə maliyyə-kredit prosesləri gedir, Kriştianonu da o cür əldə etmişdilər. Eyni zamanda olimpiya komitetimizin müavini köhnə sədrin zamanında futbolumuzun inkişafına belənçik arqument gətirmişdir ki, sən demə, ondan da qabaqkı sədrin dövründə Tofiq müəllimin adını daşıyan baş stadımızda qoyun otarırmışlar.

Heç olmasa o vaxt qoyunları kəsib satırdıq, oyunçuların evdə qazanı qaynayırdı. İndi nə qoyun var, nə oyun.

Bu temada da şair yaxşı der: "Getdin gördün qoyun, Neynirsən oyun-moyun, Ye, qalsın quruca boyun".

Hələlik bu qədər. Çalışın alim-zad olmayasınız.

# ABŞ-ın İran elçisinin Azərbaycan səfərinin pərdəarxası

## Abram Peylinin regionda keçirdiyi görüşlər ətrafında ən müxtəlif müzakirələr açılıb, suallar yaranıb...

**ABŞ-ın İran üzrə xüsusi elçisi Abram Peyli Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində diplomat Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, xarici işlər nazirinin müavini Samir Şərifov, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə, habelə ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbi və onun israilli həmkarı Corc Diklə görüşüb.**

"Bakıda Prezidentin köməkçisi Hikmət Hacıyev, xarici işlər nazirinin müavini Samir Şərifov, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə və bank sektorunun nümayəndələri ilə İran, sanksiyaların tətbiqi və regionla bağlı səmərəli müzakirələr aparılıb", - İran üzrə xüsusi elçi bildirib.

Abram Paley həmçinin İsrail səfiri Corc Diklə "İran rejiminin regionda sabitliyi pozan davranışlarını" müzakirə edib.

"İsrailin Azərbaycanla tarixi və mədəni əlaqələri haqqında eşitmək çox gözəldir", - diplomat əlavə edib.

Qeyd edək ki, bu səfər ətrafında ən müxtəlif müzakirələr açılıb, suallar yaranıb. Xüsusilə səfərin səbəbləri barədə fərqli versiyalar irəli sürülür. Eyni zamanda ABŞ rəsmisinin ölkəmizə gəlməsinin onsuz da gərgin olan Azərbaycan-İran münasibətlərini daha da gərginləşdirə biləcəyi yönündə fikirlərə də rast gəlirik.

**Siyasi təhlilçi Sona Əliyeva İran tərəfin narahatlığına heç bir əsas görmür:** "ABŞ-ın İran üzrə xüsusi elçisi Abram Peylinin Azərbaycana səfərə gəlməsi, burada bir sıra görüşlər keçirməsi heç də təsadüfi deyil. Xüsusilə regionda baş verən hadisələr, Fələstin-İsrail gərginliyi, Vaşinqton-Tehran münasibətləri fonunda heç də təsadüfi deyil. Onun Bakı səfəri çərçivəsində kimlərlə görüşdüyünü nəzərə aldıqda, görürük ki, bu görüş İranın son vaxtlar regionda atdığı məsuliyyətsiz addımlar fonunda gerçəkləşir. Çox güman ki, Peylinin Azərbaycanın İrandakı səfiri ilə görüşünün pərdəarxasında siyasi kəşfiyyat alış-verişi dayanır. Çünki ABŞ İranla bağlı məlumatları son dövrlər ilkin mənbələrdən ala bilmir. Ona görə də İranla qonşu ölkələrin səfirlikləri ilə məlumat mübadiləsində maraqlıdır. Birləşmiş Ştatlar rəsmiləri bundan əvvəl Ermənistan və Gürcüstanın İrandakı səfirləri ilə də görüşüblər. Bunlar sıradan rutin görüşlər deyil. Daha böyük hadisələrə hazırlığın impulslarıdır. Baxın, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, xarici işlər nazirinin müavini Samir Şərifov, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə, habelə ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbi və onun israilli həmkarı Corc Diklə görüşüb. Deməli, Əli Əlizadə ilə görüş sırf diplomatik kəşfiyyat xarakterlidir. Prezidentin köməkçisi Hikmət Hacıyevlə görüş isə daha çox ali mənbələrdən məlumat almaq üçündür. Yəni İranla Azərbaycan arasındakı münasibətlərin indiki səviyyəsi Birləşmiş Ştatlar üçün olduqca maraqlıdır. Xarici İşlər nazirinin müavini Samir Şərifovla görüş isə daha çox İrana tətbiq olunan sanksiyalarla əlaqəli ola bilər. Çox güman ki, ABŞ Azərbaycanla İran arasındakı iqtisadi əlaqələrin hazırkı durumundan bir qədər narahatdır. Amma bu narahatlığa heç bir əsas yoxdur. Çünki İranla bizim iqtisadi əlaqələrin tarixi kökləri mövcuddur. Abram Peylinin ABŞ və İsrailin Azərbaycandakı səfirləri ilə görüşü yekun təhlil xarakteri daşıyır. Təbii ki, bütün bunlar rəsmi Tehranı narahat edən məqamlardır. Güman etmək olar ki, Qərb İrana qarşı daha tutarlı həmlələrə hazırlaşır. Yeni sanksiyalar da gələ bilər. Bu görüşlərin İran-Azərbaycan əlaqələrində müəyyən qədər gərginlik yaradacağı istisna deyil. Hətta İran parlamentinin radikal üzvü Cəlal Rəşidi Kuçi deyib ki, İsrailin Azərbaycandakı elçiliyi tərəfindən açıq hədəfə alınmalıdır. Bu isə açıq təhdiddir və İranın bir terror dövləti olmasının göstəricisidir. İran rəsmilərinin bu cür məsuliyyətsiz addımları və bəyanatları İran-Azərbaycan münasibətlərinin pisləşməsi üçün daha ciddi səbəbdir. Çox güman ki, Kuçi kimi deputatlar İran xüsusi xidmət orqanlarının mesajını və təhdid ritorikasını dilə gətirir."



**Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini, politoloq Niyaməddin Orduxanlı İran tərəfin Azərbaycan tərəfi həzm edə bilmədiyini söylədi:** "Azərbaycan öz müstəqiliyini qazandıqdan sonra hər bir dövlətlə qarşılıqlı, ikitərəfli münasibətlərin qurulmasında maraqlı olub. Azərbaycanın Amerika ilə 32 ildir ki, ikitərəfli münasibətlər səviyyəsində əlaqələri mövcuddur. Bundan hansısa dövlətin narahatlıq keçirməsinin bizə heç bir aidiyyəti yoxdur. O cümlədən də qonşu İranın. İran uzun illərdir ki, düşmən Ermənistanla hər cür əlaqələr qurur, hərbi, siyasi, enerji dəstəyi verir. Qafanda konsulluq açır. Bütün bunları da özünün müstəqil siyasət yürütdüyü ilə əlaqələndirir. Onsuz da 44 günlük Vətən müharibəsindən sonra İranın Azərbaycana aqressiv siyasəti artmaqdadır. Bizim İsrail dövləti ilə çox yüksək səviyyəli əlaqələrimizi İran qəbul edə bilmir. ABŞ-ın İran üzrə xüsusi elçisi Abram Peylin Azərbaycanda səfərdə olması İranı narahat etməyə bilməz. Bu bizim dövlətin öz daxili işidir. İran dövləti bu cür görüşlərdən narahatlıq keçirməməlidir. İran yaxşı bilməlidir ki, Azərbaycan bu günə kimi heç bir dövlətə imkan verməyib ki, öz ərazisindən İrana qarşı istifadə etsin. Ancaq İran bunu bilə-bilə yenə də Azərbaycana qarşı qeyri-adekvat davranışlarını davam etdirir. İranda səfirliyimizə qarşı terror törədilir. Fazil Mustafaya qarşı terror hazırlayır. Din adı altında Azərbaycanda özünün agentura şəbəkəsini qurur. Məscidlərimizdə donuz saxlayan ermənilərə pulsuz silah verir. Bütün bunları xalqımız çox yaxşı bilir. İsrail Azərbaycanın ən yaxın dost ölkələrindən biridir. İran bizim dostlarımızla yaxın əlaqələrimizdən əsəbləşirsə, bir stəkan su içsin".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, ABŞ-ın İran üzrə elçisinin Bakıya səfəri Yaxın Şərqdə baş verən hadisələr və Tehranın Cənubi Qafqazdakı rolu ilə bağlıdır:** "Vaşinqton Tehranın bölgədəki planlarından narahatdır. Ancaq Vaşinqton gərək İran-Ermənistan münasibətlərindən narahat olsun. Çünki məhz Ermənistan İranla eyni mövqedən çıxış edir".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024




# Ağdamdakı Türkiyə-Rusiya mərkəzi bağlana bilər

## ABŞ Türkiyəni Ukraynaya daha çox silah verməyə razı salmağa çalışır ki, bu da iki ölkə arasında münasibətlərin soyumasına və Cənubi Qafqazdakı əməkdaşlığa mütləq şəkildə təsir edəcək

**Ukrayna münaqişəsi başlayandan Türkiyə Kiyevi silahla, ilk növbədə pilotsuz təyyarələrlə təmin edirdi, lakin indi ABŞ və Avropa İttifaqı çətin vəziyyətdə olduğu üçün Vaşinqton türk müdafiə sənayesini Ukraynanın əsas silah tədarükçüsünə çevirməyi planlaşdırır. "Komsomolskaya pravda" "Aydınlıq" nəşrinə istinadən belə məlumat yayıb.**

Nəşrin məlumatına görə, Türkiyənin "Baykar" şirkəti tərəfindən Ukraynada pilotsuz təyyarələrin istehsalı zavodunun yaradılması ilə yanaşı, ABŞ-da və Texasda Türkiyə müdafiəsinin artilleriya mərmilərinin istehsalı üçün zavodun yaradılması da planlaşdırılır. ABŞ artıq Türkiyə ilə 155 mm-lik sursat istehsalı üçün ehtiyat hissələrinin tədarükünü artırmaq üçün danışıqlar aparır.

İddia olunur ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın mayın 9-da Vaşinqtona səfəri zamanı ABŞ prezidenti Co Baydenlə bu məsələni müzakirə edəcəyi gözlənilir.

Bir müddət əvvəl Türkiyənin Maltəpə Universitetinin (İstanbul) professoru Həsən Ünal bildirib ki, Rusiya Türkiyədən Ukraynaya silah tədarükünü qəbullanmalıdır. Ünalın sözlərinə görə, PUA-ların tədarükü sayəsində Ukrayna ordusu Rusiya ordusundan güclü olmayacaq. Ünal qeyd edib ki, Türkiyənin həm Rusiya, həm də Ukrayna ilə yaxşı münasibətləri var. Əgər bu gerçəkləşsə, Türkiyə-Rusiya münasibətləri gərginləşə və bu da bölgəmizdəki vəziyyətə təsir edə bilər. Xüsusilə nəzərə alsaq ki, Rusiya və Türkiyə Cənubi Qafqazda vəziyyətə əhəmiyyətli təsiri olan ölkələrdir. Hələ də Qarabağda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi fəaliyyətdədir. Türkiyə Ukraynaya fəal silah göndərməsinin regionumuza hansı mənfi təsirləri ola bilər?

**Deputat Bəhruz Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, Rusiya və Türkiyə tarixən münasibətləri kifayət qədər mürəkkəb, bir sıra hallarda ziddiyyətli olan güc mərkəzləri kimi özünü göstərib:** "Eyni ziddiyyətli situasiya bu gün də davam edir, lakin Ankara və Moskva arasında tarixin heç bir dövründə olmadığı qədər uğurlu uzlaşma müşahidə olunur. Lakin hər iki gücün, eyni zamanda özlərinin üst-üstə düşməyən maraqları da var ki, qarşılıqlı uzlaşmanın təmin edildiyi hazırkı situasiyada bəzi hallarda mənafelərin toqquşmasına da şahidlik edirik. Lakin çoxəsrlik ziddiyyətlərdən fərqli olaraq bu gün Moskva və Ankara problemləri masada müzakirə etmək iradəsi də nümayiş etdirə bilir və bu prosesdə Azərbaycan amilinin rolu xüsusi qeyd edilməlidir.

2020-ci il 10 noyabr bəyanatının beşinci bəndi ilə münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılıb. Yeni nəzarət mexanizmi olan bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri ilk dəfə olaraq Cənubi Qafqazda birgə fəaliyyət göstərməyə başladılar. Həmin dövrdən etibarən proseslərin axarı da göstərdi ki, Rusiya və Türkiyə arasında balanslı münasibətlər Cənubi Qafqazda mövcud olan cari "status-kvo" üçün vacib zəminlərdən biridir. Lakin həlledici amil deyil.

Düzdür, Rusiya-Türkiyə əlaqələrinin tamamilə arzuolunmaz mərhələyə qədəm qoyması ağlabatan deyil, lakin nəzərə almalıyıq ki, hətta proseslər Ankara-Moskva münasibətlərinin arzuolunmaz vektorları üzrə davam edərsə və bu regionda ümumi abı-havaya təsir göstərərsə də belə, bütövlükdə Azərbaycanın Cənubi Qafqazda hərbi-siyasi yolla yaratdığı reallığın təməlli sarsılması müzakirə mövzusu ola bilməz. İlk növbədə ona görə ki, Cənubi Qafqazdakı mövcud status-kvonu Türkiyə və Rusiya yaratmayıb, bu reallığı müstəqil iqtisadi və siyasi suveren güc olan Azərbaycan özü hərbi-siyasi qələbəsi ilə formalaşdırıb. Məhz bu mənada, hətta proseslərin arzuolunmaz axarı belə Azərbaycanın iradəsinin ziddinə, regionda cari reallıq üçün dağıdıcı təsirə malik ola bilməz".

**"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İB-in sədri Emin Həsənlinin sözlərinə görə, son 20 il müddətində Türkiyənin hərbi sənaye potensialı həddindən artıq güclənib:** "Əgər Rəcəb Tayyib Ərdoğandan öncə qardaş ölkə ölkələrdən silahlar daha çox alınırsa, həmin ölkələrin təsir dairəsi də çox güclü olur. Amerika ilə Türkiyə arasındakı münasibətlərdə soyuqluq var. Xüsusilə ABŞ qardaş ölkənin müstəqil siyasət yürütməsini qəbul edə bilmir. Türkiyənin hazırda dünyada nüfuzu çox böyükdür. Rusiya ilə yaxın əlaqələri olsa da, Ukraynaya da yardım etdi. Eyni siyasəti Azərbaycan da yürütdü. NATO ölkələri artıq rəsmi Ankaranın yürütdüyü siyasətlə razılaşmağa məcbur qalıblar. Türkiyənin uğurları həm də Azərbaycanın uğurları deməkdir. Təbii ki, Amerika, Rusiya və Türkiyə arasında tam razılaşma heç zaman mümkün olmayacaq. Çünki bu ölkələrin maraqları bir çox yerlərdə toqquşur. Sona qədər bu ölkələr bir-biri ilə müttəfiq ola bilməzlər. Amma bu bir reallıqdır ki, hər kəs Türkiyəni qəbul edir, onun gücü ilə reallaşır".

**Hərbi ekspert Səxavət Məmməd qeyd etdi ki, müharibədən qazanclı çıxanlar silah satan ölkələr olur:** "Rusiya-Ukrayna müharibəsinə baxsaq, Qərb ölkələri zamanında götürdüyü öhdəliyə görə Ukraynaya dəstək verməlidir. Ona görə də onlar az qazananlar siyahısındadır. Zelenski hətta etiraf etdi ki, ayrılan pulların çoxu Ukraynaya gəlmir, elə yerindəcə silahlara verilir. Yeni Avropadakı silah şirkətləri, ABŞ-ın silah şirkətləri bu sahədə qazanmaqdadır. Türkiyə isə bu məsələdən ən qazanclı çıxan ölkələrdəndir. Türkiyə 20 faizə qədər özünü silahla təmin edə bilirdisə, indi bu rəqəm 80 faizin üzərindədir. Bütün qoşun növləri üzrə çox modern silahlar istehsal olunur. Hazırda silah istehsalı sahəsində Türkiyə dünyada əsas yerlərdən birini tutur. Türk silahları 44 günlük Vətən müharibəsində böyük sınaqlardan çıxdı. Düzdür, Suriyadakı antiterror əməliyyatlarında da Türkiyə bu silahlardan istifadə etmişdi. Amma Vətən müharibəsində bütün dünya buna şahidlik etdi. Amerikanın da diqqətini xüsusi çəkdi. Türkiyə də istəyir ki, bu silahlar dünyanın böyük bir qisminə yayılsın. Bilirsiniz ki, hansı sanksiyalara qoşulmayaraq həm də Rusiya ilə ticarətini davam etdirir, özü də artan xətlə. Ukrayna isə silah satışını həyata keçirir. Qərb ölkələri yeni texnologiyalara başı qarışdığı üçün mərmi istehsalını axsatmışdılar. Türkiyə bu boşluğu doldurmaqdadır. Türkiyə dron istehsalını da genişləndirib. Hazırda həm mərmi, həm də drona çox ciddi ehtiyac yaranıb. Ona görə də Türkiyə Rusiya ilə münasibətləri pozmadan balansı qoruyaraq Ukraynaya mərmi, dron və raketlər satır. Rusiya sanksiyaları həm də Türkiyə üzərindən yardığı üçün bu məsələyə göz yumur. Hesab edirəm ki, Türkiyə balansı qoruduqca, Rusiya ilə arasında problem yaşamayacaq. Əks halda, Rusiya ilə münasibətlərin pozulması çox ağır nəticələr verə bilər. Heç şübhəsiz ki, Rusiya ilə Türkiyə münasibətlərinin soyuqlaşması Cənubi Qafqaza mütləq şəkildə təsir edəcək. Türkiyə Cənubi Qafqazın söz sahiblərindən biri sayılmır. Çünki Cənubi Qafqazda söz sahibi olmaq üçün 3 ölkəyə də təsir imkanları olmalıdır. Faktiki olaraq Ermənistana Türkiyənin təsir imkanları sıfıra bərabərdir. Türkiyə bilir ki, Cənubi Qafqaza daxil olmaq, söz sahibi olmaq üçün indiki məqamda Rusiya ilə yaxşı keçinməlidir. Rusiya ilə Azərbaycanın münasibətləri Türkiyədən asılı olmadan yaxşı səviyyədədir. Burada Avropa İttifaqının, ABŞ və Fransanın xüsusi rolu var. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, iki ölkə arasında münasibətlərin gərginləşməsi Azərbaycana da təsir edəcək. Çünki istər müharibə, istərsə də antiterror və digər məsələlər maraqların uzlaşması ilə həyata keçib. Əgər maraqlarda uzlaşma olmayacaqsa, regionda gərginlik artacaq. Azərbaycan da təbii ki, zərərli çıxanlardan olacaq".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**




## Xarici siyasət kursu ilə bağlı sorğu - cəmi 3,6% faiz...

**Sosial Tədqiqatlar Mərkəzi dövlətin xarici siyasət kursu və xarici siyasət gündəliyində dayanan əsas məsələlər barədə vətəndaşların rəyini öyrənmək məqsədilə sorğu keçirib.**

Mərkəzdən verilən məlumata görə, sorğunun nəticələri Azərbaycanın xarici siyasət kursunun ictimai rəydə uğurlu olduğunu göstərib.

Belə ki, respondentlərin 62,9%-i hazırkı xarici siyasət kursunu tamamilə uğurlu, 28,1%-i qismən uğurlu olaraq dəyərləndirib. Cəmi 3,6% uğursuz hesab edib, 5,4%-i bu suala cavab verməkdə çətinlik çəkib.

Eyni zamanda respondentlərin xarici siyasət gündəliyinin əsas istiqamətləri ilə bağlı rəylərini öyrənmək məqsədilə onlara sual ünvanlanıb və bir neçə cavab variantını seçmək imkanı verilib. Sorğuda iştirak edənlərin 70,1%-i xarici siyasət gündəliyində əsas istiqamətin Türk dövlətləri ilə münasibətlər olduğunu bildirib. Həmçinin respondentlərin 28,1%-i əsas istiqamətin Rusiya ilə münasibətlər olduğunu ifadə edib. Sorğu nəticələrinin ardıcıllığına görə, növbəti sıralarda Qərblə münasibətlər (19,0%), Ermənistanla münasibətlər (12,1%), Fransa ilə münasibətlər (10,8%) və digər cavablar (1,3%) yer alıb. Respondentlərin 8,1%-i bu barədə hər hansı məlumatının olmadığını bildirib, 4,9%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, sorğular 2024-cü ilin 15-18 mart tarixlərində, 18 yaşından yuxarı 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Seçmə ehtimallı üsulla ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olunub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub.

Sorğularda anonimlik təmin olunub. Respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı və nəticələrin yalnız ümumiləşdirilmiş formada istifadə olunacağı barədə zəruri məlumatlar çatdırılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024



## Astarada bir ailənin üç üzvü yanaraq öldü

**Astarada baş verən qəzada bir ailənin 3 üzvü avtomobildə yanaraq ölüb.**

Dəhşətli qəza Ələt-Astara-İran sərhədi avtomobil yolunun 201-ci kilometrliyində, Astara rayonunun Ərçivan kəndindən keçən hissəsində qeydə alınıb.

Hadisə zamanı Rusiya vətəndaşı 56 yaşlı Maqammədəmin Abdullaşa məxsus iritonnajlı yük avtomobili yol kənarında hərəkətsiz olub. Astara rayonunun Şiyəkəran kənd sakini 31 yaşlı Elman Mirzəmməd oğlu Əliyevin idarə etdiyi BMW markalı 99-SZ-632 dövlət qeydiyyat nömrə nişanlı avtomobil hərəkətdə olarkən idarəetməni itirərək iritonnajlı avtomobilin altına girib.

Zərbənin təsirindən avtomobil alışaraq yanıb. Qəza nəticəsində sürücü və onun həyat yoldaşı 22 yaşlı Fərqanə İlham qızı Əliyeva, eləcə də onların 3 yaşlı uşaqları Gülxanım Elman qızı Əliyeva avtomobildə yanaraq ölüblər.

Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Astara rayon yanğından mühafizə xidmətinin iki yanğınsöndürən avtomobili və canlı qüvvəsi, nazirliyin Cənub regional mərkəzinin xilasetmə qurumunun iki briqadası cəlb olunub.

Meyitlər nəqliyyat vasitəsindən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.



## Bakıda builki Formula 1 yarışları nə vaxt keçiriləcək?

**Son illər aprel ayında Bakı şəhərində Formula 1 yarışlarının keçirilməsinə adət etmişdik. Amma 2024-cü ilin apreli Azərbaycan paytaxtı üçün sakit keçir. Bəs builki Formula 1 yarışları Bakıda nə vaxt təşkil olunacaq?**

Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Avtoidman üzrə Ümumdünya Şurası bir müddət öncə 2024-cü il Formula 1 Dünya Çempionatının təqvimini müəyyənləşdirib.

Təqvimə əsasən, yeni Formula 1 mövsümü martın 2-də Bəhreyndə başlayıb, ənənəyə sadiq qalaraq dekabrın 8-də Əbu-Dabidə başa çatacaq.

Bakı şəhəri Formula 1 Azərbaycan Qran Prisinə 2024-cü ilin 13-15 sentyabr tarixlərində ev sahibliyi edəcək. Sayca səkkizinci dəfə təşkil ediləcək Bakı yarışı təqvimdə yer alan 24 yarışdan biridir.

## 20 gün əvvəl maşın vuran piyada xəstəxanada öldü

**Abşeronda 20 gün öncə maşın vuran 21 yaşlı oğlan ölüb.**

Hadisə martın 14-də Xırdalanda baş verib. Yolu keçmək istəyən 2003-cü il təvəllüdlü Mirtural Ramil oğlu Səlimovu maşın vurub. Aldığı xəsarətlərdən komaya düşən gənc 20 gün ərzində xəstəxanada müalicə olunub.

Mirtural Səlimov xəstəxanada dünyasını dəyişib. Fakt araşdırılır.

# Taksilərə kamera quraşdırılmasına etirazlar

## Ekspert ajiotaj yaradan tələbdən danışdı: "Sürücü cəmiyyətdə tanınan şəxsin sevgilisi ilə restorandan çıxıb hotelə getdiyi görüntüləri sosial şəbəkələrdə yaysa...."

**Nazirlər Kabinetinin bir neçə gün əvvəl təsdiqlədiyi "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"ə əsasən, Azərbaycanda dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 15 ildən artıq müddət keçən avtomobil nəqliyyatı vasitələri taksi minik avtomobilləri ilə sərnişin daşımalarında istifadə oluna bilməz. Bu qərar 2024-cü il iyulun 1-dən qüvvəyə minir.**

Taksi minik avtomobilləri ən azı "avro-5" ekoloji standartına uyğun olmalıdır. Dövlət qeydiyyat şəhadətnaməsində göstərilən buraxılış tarixindən 8 ildən artıq müddət keçmiş avtonəqliyyat vasitəsinə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 15.2-ci maddəsi ilə müəyyən edilən buraxılış kartı verilmir.

Taksilər "ABS" əyləc sistemi, salonu normal işıqlandırma sistemi, tam hava tənzimləyicisi (sərinlətmə və isitmə funksiyalı), sürücü və bütün sərnişinlər üçün təhlükəsizlik kəməri ilə təchiz edilməlidir. Taksi minik avtomobillərinə bütün salonunu əhatə edən və qeydə aldığı məlumatları ən azı 1 ay müddətində saxlaya bilən yaddaş qurğusu ilə təchiz edilmiş videokameralar quraşdırılmalıdır. Bundan başqa, taksi minik avtomobilində sərnişinlər tərəfindən yaxşı görünən yerdə lövhədə "tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olması təmin edilməlidir. Hüquqi şəxslərin və ya fərdi sahibkarların sərnişin daşımalarında istifadə etdiyi taksi minik avtomobillərində nağdsız ödəniş üçün POS-terminal olmalıdır.

Qeyd edək ki, son illərdə taksilərlə bağlı ciddi problemlər yaranıb. Bir çox sərnişinlər taksilərin fəaliyyətindən narazılıq ifadə edib. Həmçinin insanlarda taksilərə qarşı güvənsizlik yaranıb. Taksi sürücülərinin qeyri-etik davranışları, onların arasında narkotik istifadə edənlərin olması kimi zaman-zaman sosial şəbəkələrdə səsləndirilən iddialar taksi fəaliyyətinə qarşı birmənalı olmayan fikirlər formalaşdırıb. İcazələrin verilməsi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən yaradılan "AYNA" informasiya sisteminin "Daşıyıcılar" altsistemi üzərindən elektron qaydada həyata keçirilir. Elektron sistem müvafiq dövlət orqanlarının informasiya sistemlərinə inteqrasiya edildiyindən tələb olunan sənədlərin sayı minimuma endirilib, digər dövlət orqanlarının informasiya sistemlərindən əldə edilməsi mümkün olmayan məlumatlarla bağlı sənədlərin skan edilmiş surətinin müraciətə əlavə edilməsi imkanı yaradılıb.

Elektron portaldan istifadə zamanı çətinliklərin yaşanmaması üçün AYNA tərəfindən taksi parklarına təlimlər keçilib və xidmətdən istifadə qaydaları ilə bağlı videotəlimat hazırlanıb.

Taksilərlə bağlı qoyulan yeni tələblərə əsasən, nəqliyyat vasitələri bütün salonu



əhatə edən və qeydə aldığı məlumatları ən azı 15 gün saxlaya bilən yaddaş qurğusuna malik videokameralarla təchiz edilməlidir. Bu qərar isə vətəndaşlar tərəfindən birmənalı qarşılanmayıb.

"Baku TV" mövzu ilə bağlı sakinlərin rəyini öyrənməyə çalışıb. "Razı deyiləm, mən və yaxınlarımın taksidə videosunun olmasını istəməzdim. Çünki taksi sürücüsünün həmin videonu paylaşmamasına heç kim zəmanət vermir", - deyə paytaxt sakini deyib.

Göründüyü kimi, paytaxt sakinləri taksilərin salonlarında kamera quraşdırılmasına etiraz edirlər.

Fərdi taksi fəaliyyəti ilə məşğul olan sürücülər isə nəqliyyat vasitəsinə olan 15 il məhdudiyyətini sərt sayır. Nə etməli? Yeni qaydalara korrektələr olunmalıdır, yoxsa yola bu şəkildə davam etməli?

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Yeni Müsavat"a deyib ki, bir çox ölkələrdə taksilərin salonunda kamera quraşdırılması tələbi var:** "Qonşu Türkiyədə də bu praktika var. Bir qədər əvvəl Türkiyədə sərnişin taksi sürücüsünə odlu silahdan atəş açmışdı. Taksinin salonunda quraşdırılmış kamera ilə cinayətkarın kimliyi qısa müddət ərzində müəyyən olundu və cinayəti törədən həbs edildi".

**Ekspert deyir ki, taksi salonunda kamera quraşdırılması yaxşı haldır, lakin görüntülərin digər şəxslərin əlinə keçməsi ehtimalı da diqqətdən qaçırılmamalıdır:** "Demək olmaz ki, taksi sürücülərinin tam əksəriyyəti məsuliyyətlidir, işinə vicdanla yanaşandır. Hər bir sahədə olduğu kimi, taksi sürücüləri sırasında da məsuliyyətsiz insanlar var. Məsələn, axşamların birində məşhur bir sənətçi, cəmiyyətdə tanınan şəxs sevgilisi ilə restorandan çıxıb bunun idarə etdiyi maşına mindi və hər hansı bir hotelə getdi. Məsuliyyətsiz adam salondan görüntüləri çıxarıb sosial şəbəkələrdə, platformalarda yaya bilər. Yaza bilər ki, axşam filankəsi içkili vəziyyətdə sevgilisi ilə filan restorandan filan hotelə getdiyini gördüm. Bu halda cavabdeh kim olacaq?"

**Ekspert deyib ki, Rəqəmsal İnkişaf və Texnologiyalar Nazirliyi böyük texniki imkanlara malikdir:** "Əgər taksi salonlarında kamera quraşdırılması tələbi varsa, bu halda yaddaş kartları xüsusi parolla olmalıdır ki, sürücü istədiyi vaxt görüntünü aparıb kompütерə köçürə bilməsin. Görüntü lazım olarsa, sərnişinin, sürücünün şikayəti əsasında yalnız AYNA əməkdaşları və ya hüquq-mühafizə orqanı əməkdaşları tərəfindən götürülsün, təhlil edilsin, baxılsın".

**Ekspert deyib ki, nəqliyyat vasitələri üçün 15 il tələbi normaldır:** "Çünki taksidə köhnə avtomobillər xidmətin keyfiyyətini aşağı salır. Ona görə də qərar verilib ki, taksi sahəsində keyfiyyətli xidmət təmin olunsun. Kimlərəsə güzəşt olunsa, bu qərarın heç bir effektiv nəticəsi olmayacaq. İyulun 1-nə qədər kimlər ki, müraciət edib taksi fəaliyyəti üçün icazə alacaqsa, onun ağ, qırmızı, boz, qara və digər rənglərdə olan avtomobilinə taksi fəaliyyəti üçün icazə veriləcək. İyulun 1-dən sonra isə ölkəyə gətirilən və taksi fəaliyyəti üçün nəzərdə tutulan avtomobillərə 8 il tələbi qoyulur. Rəng məsələsi də həmin avtomobillərə aiddir. Qaydalar - rəng məsələsi - taksidə istifadə olunan avtomobilin qırmızı və ya ağ olması, avtomobilin maksimum 8 il əvvəl istehsal olunması tələbi iyulun 1-dən sonra işə düşür. Bu tarixdən əvvəl ölkəyə gətirilən, istənilən rəngdə olan maşın taksi fəaliyyətinə yararlı nəqliyyat vasitəsi kimi qeydiyyata alınacaq. Texniki şərt, buraxılış kartı veriləcək. Bu cür qaydalar müəyyən olunub. Sadəcə, bəzi insanlar qaydaların düzgün başa düşməyib. Və ya ajiotaj yaranmasında maraqlıdırlar. Buna görə də səbirlə, təmkinlə bu qaydaların bərqərar olmasına çalışmaq lazımdır. Taksi xidməti keyfiyyətli olmalıdır".

Ekspert bildirib ki, dövlət taksi sahəsində neqativ halların aradan qaldırılması üçün müvafiq addımlar atır və bu, ümumilikdə xidmət səviyyəsinin yüksəlməsinə, təsadüfi şəxslərin taksi fəaliyyətindən uzaqlaşdırılmasına gətirib çıxaracaq.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Ölkə o mühüm xəbəri gözləyir - hazırlıqlar başladı

## Növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ehtimalı yüksəkdir; partiyalardan reaksiyalar

**Son günlər ölkə mətbuatında və ictimaiyyətdə növbədənkənar parlament seçkilərinin yaxın aylarda keçiriləcəyi ilə bağlı müzakirə gedir. Bu ilin noyabrında Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini nəzərə alsaq, parlament seçkilərinin may-iyunda baş tutması istisna edilmir.**




Ölkəmizdə sonuncu növbədənkənar parlament seçkiləri 9 fevral 2020-ci ildə baş tutub.

Konstitusiyanın 84-cü maddəsinin ikinci bəndinə əsasən Azərbaycanda Milli Məclisin hər çağırışının seçkiləri beş ildən bir noyabrın birinci bazar günü keçirilir. Növbəti parlament seçkiləri 2024-cü il noyabr ayının 3-də keçirilməlidir. Bu, konstitusiyanın tələbidir. Prosedura görə, parlamentin buraxılması ilə bağlı Milli Məclisdə iclas keçiriləcək və bundan sonra Prezident növbədənkənar seçkinin vaxtını təyin edəcək.

Majoritar seçki sistemi ilə keçirilən seçkilərdə Milli Məclisin 125 deputatının seçilməsi nəzərdə tutulur.

Hələlik bu barədə rəsmi açıqlama verilməyib, amma bəzi siyasi partiyalar növbədənkənar parlament seçkiləri ilə bağlı hazırlıqlar görür.

İddia olunur ki, Yeni Azərbaycan Partiyasının namizədlərinin müəyyənləşdirilməsi üçün hətta iş başlayıb, 125 seçki dairəsi üzrə hakim partiyanın namizədlərinin ilkin siyahısı bu yaxınlarda elan ediləcək.

YAP-ın irəli sürəcəyi namizədlərin seçimində partiyanın İdarə Heyətindən daha çox hakim komandada yüksək vəzifə tutan 3-4 şəxsin təqdimatını verdiyi şəxslər əsas götürüləcək.

Məlumatda həmçinin o da xüsusi vurğulanır ki, irəli sürülən namizədlərin seçilməsi üçün yeri icra hakimiyyəti orqanlarına hansısa saxtakarlıqlara getmək qadağan ediləcək.

“Ali siyasi rəhbərliyin mövqeyi budur ki, YAP-ın namizədləri seçkini özü qazanmalıdır”, - deyə mənbə vurğulayıb.

**Hakim partiya funksionerlərindən olan Elman Nəsirov bugünlərdə mediaya açıqlamasında deyib ki, YAP hər zaman seçkilərə hazırdır:** “Özünə hörmət edən normal partiya hər an seçkiyə hazırdır. Heydər Əliyevin təbirincə desək, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyası kimi hər zaman seçkilərə hazır vəziyyətdədir”.

Müxalifət partiyaları da növbədənkənar parlament seçkilərinin keçiriləcəyi düşüncəsindədir. Bəs hazırlıqlara başlayıblarmı?

**AMİP sədri Arzuxan Əlizadə “Yeni Müsavat”a bildirdi ki, fevralın 7-də növbədənkənar Prezident seçkisi keçirildikdən dərhal sonra bu il növbədənkənar parlament seçkilərinin də keçiriləcəyi ilə bağlı məsələ müzakirə olunmağa başlayıb. Bununla bağlı müxtəlif versiyalar irəli sürülür. Amma mütləq qanunvericiliyə diqqət yetirmək lazımdır:** “Azərbaycan Konstitusiyasına görə növbəti parlament seçkiləri bu il noyabrın 3-də keçirilməlidir. Sadəcə olaraq, noyabrın 11-də ölkəmizdə COP29 kimi böyük beynəlxalq tədbir keçirilməsi nəzərdə tutulduğu üçün seçkinin bir qədər də ertələnəcəyi və ya gələn ilin fevralında keçiriləcəyi ilə bağlı da versiyalar irəli sürülür. Birmənalı olaraq əgər seçkilər qabağa çəkiləcəksə, o zaman parlament növbəti dəfə özünü buraxmalı və növbədənkənar parlament seçkiləri elan olunmalıdır. Bu ehtimal kifayət qədər yüksəkdir. Amma eyni zamanda onu da diqqətə çatdırmaq istəyirəm ki, cəmiyyətdə həmçinin parlament seçkilərindən öncə referendumun keçiriləcəyi ilə bağlı da məsələ müzakirə mövzusudur. Bununla bağlı bizim də təklimiz ondan ibarətdir ki, parlament seçkilərindən əvvəl referendumun keçirilməsi daha məqsədə müvafiqdir. Parlament seçkilərinin majoritar və proporsional sistemlə keçirilməsi, eləcə də Milli Məclis üzvlərinin say tərkibinin artırılması vacibdir. Amma istənilən halda, növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ehtimalını da yüksək qiymətləndiririk və bununla bağlı da AMİP olaraq biz qərarımızı vermişik. Hələ fevralın 23-də Milli İstiqlal Partiyasının Siyasi Şurası rayon təşkilatlarının sədrlərinin iştirakı ilə genişləndirilmiş iclas keçirib və seçkiyə hazırlıqla bağlı qərarını verib. Biz artıq rayon təşkilatlarına seçkiyə hazırlıqla bağlı müvafiq tapşırıqlar da vermişik. Bu ilin sonunda bələdiyyə seçkiləri də keçiriləcək və buna görə də hər iki seçkiyə hazırlıq işlərinə başlanıb”.

**Partiya sədri qeyd etdi ki, aprel ayının sonlarına doğru partiyanın Ali Məclisinin çağırılması da qərara alınıb. Gündəlikdə sırf seçkilərə hazırlıq məsələsinin olacağı nəzərdə tutulub:** “Bununla bağlı mərkəzi qərargahda intensiv iş gedir. Mütəmadi olaraq tapşırıqların icra vəziyyəti yoxlanılır. Böyük ehtimalla aprelin 21-də keçiriləcək Ali Məclisin iclasında seçki məsələsi müzakirə mövzusu olacaq. İstənilən halda mən də o qənaətdəyəm ki, partiyalar seçkilərə hər zaman hazır olmalıdır. Azərbaycan reallığında növbədənkənar seçkilərin keçirilməsi ehtimalı həmişə yüksək olduğu üçün seçkilərə hazırlıq partiyaların bir nömrəli vəzifəsi olmalıdır”.

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, əslində parlament seçkilərinin növbədənkənar olması qanunun tələbidir. COP29 kənara qoyulsa belə, noyabr və ya fevral aylarında parlament seçkilərinin keçirilməsi mümkün deyil. Çünki həmin müddət iki aylıq bələdiyyə seçkiləri kampaniyası dövrünə düşür:** “Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən iki seçki eyni anda keçirilə bilməz. Bu da o deməkdir ki, növbəti parlament seçkiləri nə noyabrda, nə də fevralda keçirilə bilməz. Bu da o anlama gəlir ki, Milli Məclisin özünü buraxmasından və növbədənkənar seçkilər təyin edilməsindən başqa variant yoxdur. Bu variantda isə iyul ayından o tərəfə seçkinin keçirilməsi mümkün deyil. Yəni əslində növbədənkənar parlament seçkiləri əslində gözlənilməz məsələ deyil.

Seçkiyə hazırlıq məsələsinə gəlincə, ciddi partiyaların hamısı bunu nəzərə alır və hərə öz imkanları daxilində seçkiyə hazırlaşır. AĞ Partiya da Azərbaycanın ən iddialı partiyalarından biridir və biz seçkiyə hazırlıq prosesinə başlamışıq. Namizədlərin müəyyən olunması, necə dairədən namizəd verilməsi, seçkinin müşahidəçiliyinin təşkili üçün lazımi addımların atılması və digər məsələlərin həlli istiqamətində işlər aparılır".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirdi ki, konstitusiyanın 84-cü maddəsinə görə parlament seçkiləri beş ildən bir noyabrın birinci bazar günü keçirilməlidir:** “Ona görə də bu dəfə parlament seçkiləri noyabrın 3-nə düşür. Eyni zamanda konstitusiyanın 98-ci maddəsində göstərilir ki, növbədənkənar parlament seçkiləri keçirilibsə, həmin çağırış Milli Məclisin fəaliyyət müddəti beş ildən az ola bilər. Belə olan halda seçkilər noyabrın 3-də keçirilməlidir. Əgər başqa vaxtda keçirilməsi zərurəti ortaya çıxacaqsa, yenə də Milli Məclis özü özünü buraxmalıdır və yenidən növbədənkənar parlament seçkiləri təyin edilməlidir.

Seçkiyə hazırlığa gəlincə, bizim partiya seçkiyə hazırlıq işlərini davamlı aparır".

**Azad Vətən Partiyasının sədri Akif Nağı isə qeyd etdi ki, hər bir partiyanın fəaliyyətinin əsas mərhələsini seçkilərdə iştirak təşkil edir. Növbədənkənar parlament seçkilərinə gediləcəyi isə gözləniləndir:** “Məlumatlar yayılır ki, növbədənkənar parlament seçkiləri yay aylarında keçiriləcək. COP29 tədbiri ilə eyni vaxtda seçkilərin keçirilməsi çətin olar və uyğun gəlməz. Ona görə də seçkinin vaxtından əvvəl keçirilməsi düzgün qərar olardı.

İstənilən partiya seçkilərə həmişə hazırlıq işləri aparmalıdır. Buraya təşkilati işlər, namizədlərin müəyyənləşdirilməsi, partiyanın təbliğ edilməsi və digər işlər daxildir. Azad Vətən Partiyası seçkidə iştiraka hazırdır. Parlamentdə təmsil olunmaq bizim əsas hədəflərimizdən biridir. Eyni zamanda bələdiyyə seçkilərində də iştirak etməyi düşünürük. Buna hazırlıq işlərini aparırıq".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**


Qubad İbadoğlu

# ADR-in həbsdə olan sədri ilə bağlı müraciət

**ABŞ və Böyük Britaniya universitetlərinin professorları Qubad İbadoğlunu azad etməyə çağırıblar.**

ABŞ-da çalışan 22 professor Qubad İbadoğlunun azad olunması çağırışı ilə müraciət imzalayıb. Bu barədə Azərbaycan Demokratiya və Rifah Partiyasının həbsdə olan sədri və professoru Qubad İbadoğlunun qardaşı Qalib Toğrul məlumat verib.

Onun sözlərinə görə, 2 universitetin - “Duke University” və “University of North Carolina at Chapel Hill”in professorları Qubad İbadoğlunun azadlığa buraxılmasına yardım etməsi üçün ABŞ dövlət katibi Entoni Blinkenə müraciət ünvanlayıblar.

Qalib Toğrul qeyd edib ki, Q.İbadoğlu vaxtilə həmin universitetlərdə çalışıb.

Professorların ünvanladığı müraciətdə Qubad İbadoğlunun həbsindən 250 gün ötməsi, səhhətinin ağır vəziyyətdə olması, Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşlarının onu ziyarət etməsinə imkan verilməməsi xatırladılır və bütün beynəlxalq təşkilatlar və hökumətlər professorun azadlığa buraxılması və ona adekvat tibbi yardım göstərilməsi və ədalətli və şəffaf məhkəmə üçün hərəkətə keçməyə çağırılır.

Böyük Britaniyanın iki nüfuzlu universiteti də qanunsuz həbsdə saxlanılan professor həmkarlarının azad olunması ilə bağlı rəsmi mövqe ifadə ediblər.

London İqtisadi və Siyasi Elmlər Məktəbi (The London School of Economics and Political Science) və Oksford Universiteti (Oxford University) həbsindən 250 gün ötən professor Qubad İbadoğlunun azad olunması prosesinə töhfə verməsi xahişi ilə Böyük Britaniyanın xarici işlər naziri Devid Kamerona müraciət ünvanlayıblar.

Müraciətdə Qubad İbadoğlunun səhhətinin kəskin pisləşdiyi, həyati təhlükəsinin davam etdiyi vurğulanır və onun təcili həbsdən azad olunması üçün Böyük Britaniya hökumətinin əlindən gələni etməsinə çağırış olunur.

Q.İbadoğlu 2023-cü il iyulun 23-də saxlanılıb, Bakının Nərimanov Rayon Məhkəməsi Qubad İbadoğlunu CM-in 204.3.1 (saxta pulların satışı) və 167.3.1-ci (dini ekstremizmyönlü materialların hazırlanması, saxlanması və ya yayılması) ittihamı ilə 3 ay 26 gün müddətinə həbs edib.

❑ **“Turan”**

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024



# Zərdüşt Əlizadənin sensasion iddialarına reaksiyalar

## Aqil Abbas: “Əslində Zərdüşt Əlizadə çox ağıllı adamdır, amma çox təəssüf ki... ”
## Pənah Hüseyn: “30 ildən artıqdır Azərbaycana qarşı təbliğat aparır”
## Akif Nağı: “Heç kəsin haqqı yoxdur ki, Azərbaycanı aşağılasın”

**Politoloq Zərdüşt Əlizadənin “Qaynarinfo”ya müsahibəsində səsləndirdiyi fikirlər cəmiyyət və ziyalılar tərəfindən birmənalı qarşılanmayıb. Bəzi şəxslər onun fikirləri ilə razı olduqlarını bildirsələr də, digərləri Zərdüşt Əlizadəni qərəzli hesab edirlər.**

Zərdüşt Əlizadənin “Azərbaycan mədəniyyətinin kökündə farsdilli ədəbiyyat dayanır” və “Azərbaycan Rusiyanın işğalına qədər çox geridə qalmış Şərq ölkəsi idi” kimi söylədiyi fikirlər etirazlara səbəb olub. Z.Əlizadə deyib ki, Azərbaycan Rusiyanın işğalına qədər çox geridə qalmış Şərq ölkəsi idi: “Nə bir sənayemiz, nə bir elmimiz var idi, heç mükəmməl dövlət sistemimiz də yox idi. Rusiya gəlib Şimali Azərbaycanı işğal edəndə burada bir-biri ilə düşmən olan 6-7 xanlıq mövcud idi. Onların da nə maliyyə imkanları, nə hərbi, nə sənaye qüvvəsi var idi. Sadəcə, bir xan var idi, onun da pulu 5-10 nəfərdən ibarət kiçik hərbi dəstə saxlamağa çatardı. Yəni mərkəzləşmiş bir dövlət yox idi. Rusiya imperiyası gəlib bizi döyə-döyə Şərqdən çıxarıb, Qərb dünyasına gətirdi. İndi də demokratiyanı ancaq elə öyrənə bilərik. Necə ki, Yaponiyanı döyə-döyə inkişaf etdirdilər, Almaniyanı döyə-döyə nasizm ideologiyasından xilas elədilər. Bizi də döyə-döyə gerilikdən, cəhalətdən xilas etmək mümkündür...”

**Z.Əlizadə deyib ki, Əbülfəz Əliyev, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahlı, İsa Qəmbər, Pənah Hüseyn hamısı qaragüruh idi:** “Onlar xalqdan alət kimi istifadə edir, intellektualların sözünü qəribçiliyə salırdılar. Düşünməyi bacarmayan cahil xalqa deyirdilər ki, Zərdüşt Əlizadə əslən iranlıdır, atası KQB-nin agentidir, özü Mərkəzi Komitəyə işləyir. Bu cür axmaq fikirləri səsləndirirdilər, xalq da başını sallayıb, onlara inanırdı. Məsələn, onlar deyirdi, Rusiya bizim düşmənimizdir, mən isə deyirdim Rusiya qüdrətli dövlətdir, ona təpik, kəllə atmayın. Onunla siyasət yürütməyi öyrənin. İranla düşmənçilik etməyin, güclü dövlətdir. Onlar da deyirdi, Zərdüştün atası İrandan gəlib Azərbaycana, ona görə düşməndir, xaindir. Hamı da buna inanırdı. Mən də boğaza yığıldım. 1990-cı ilin yanvarın 7-də Xalq Cəbhəsini, özüm yaratdığım Xalq Cəbhəsini tərk edərək getdim. AXC-ni mən yaratmışam, Əbülfəz Əliyev yaratmayıb, o, mən yaratdığım Xalq Cəbhəsinə gəlib. İlk dayaq dəstələrini mən yaratmışam, ilk proqram sənədlərini mən yazmışam. Əbülfəz Əliyevlik deyildi ki, elmi-nəzəri konsepsiya yazsın”.

**Millət vəkili, yazıçı Aqil Abbas mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb:** “Nizami Gəncəvinin dövründə əksər şair və yazıçılar fars dilində yazırdılar. Yəni necə ki, zamanında ruslar fransızca yazırdı, azərbaycanlılar, türklər də farsca yazırdı. Hətta türk sultanları da farsca yazırdılar. Beləliklə, əvvəllər Şərqdə hegemon dil fars dili olduğundan əksər yazıçılar bu dildə yazıb-yaradırdılar. Ona görə də bizimkilər də farsca yazıb, burada qeyri-adi bir şey yoxdur.

Lakin həmin dövrdə Azərbaycan dilində də yazan var idi. Məsələn, İzzəddin Həsənoğlu Azərbaycan dilində çox səlis, bir fars sözü belə olmadan şeir yazıb. Onun hələ bir şeiri bizə gəlib çatıb, demək ki, həmin dövrdə Azərbaycan dilində yazanlar da var idi. Sonra isə Nəsimi kimi nəhəng şair, ardınca Məhəmməd Füzuli Azərbaycan dilində yazıb.

Beləliklə, ədəbiyyatımızın farsdan gəlməsi, mədəniyyətimizin kökündə fars ədəbiyyatının dayandığını demək qətiyyən doğru fikir deyil. Həmçinin fars ədəbiyyatı, şeiri bizə təsir edib fikrini də qəbul etmirəm. Çünki bizim özümüzün çox dəyərli yazıçılarımız olub. Sadəcə, qeyd etdiyim kimi, həmin vaxt Şərqdə fars dili hegemon dil olub. Bu cür ifadələri səsləndirməkdə məqsəd ara qarışdırmaq, İranı, fars mədəniyyətini önə çəkməkdir. Amma unutmaq olmaz ki, dünyaya əxlaqsızlığı, o cümlədən uşaqbazlığı farslar gətirib. Doğrudur, farsların da mədəniyyəti, ədəbiyyatı, dövlətçilik tarixi var. Amma həmin dövlətçilik tarixində, mədəniyyətində türklər mühüm rol oynayıb. Necə ki, bu gün İranın həm siyasi, həm də mədəni həyatında türklər böyük rol oynayır.

Əslində Zərdüşt Əlizadə çox ağıllı adamdır. Mən həmişə onu çox ağıllı adam saymışam. Amma təəssüf ki, ideyalarında farsa, İrana xidmət edir. Zərdüşt Əlizadə qiymətli adamdır, Xalq Cəbhəsini də yaradan o olub”.

**Azərbaycan Xalq Cəbhəsinin yaradıcılarından biri olmuş, sabiq baş nazir Pənah Hüseyn isə Zərdüşt Əlizadənin açıqlamalarına bu cür mövqe bildirdi:** “Zərdüşt Əlizadə artıq 30 ildən artıqdır ki, Xalq Cəbhəsinə, onun tarixinə, lideri, ilk sədri Əbülfəz Elçibəyə, Azərbaycan Milli Hərəkatına və xalqına qarşı böhtan xarakterli, təhrif olunmuş təbliğat aparır. Son açıqlamaları da bunun növbəti nümunəsidir. Amma aktuallığı baxımından əhəmiyyətini itirib. Çünki dəfələrlə onun bu cür hədyanları təkzib olunub. Xalq Cəbhəsinin yaranması, onun təsis konfransı, tarixi sənədləri kifayət qədər təsdiq və tədqiq olunub”.

**Azad Vətən Partiyasının sədri Akif Nağı dedi ki, Zərdüşt Əlizadənin fikirlərinə rəy bildirməyə ehtiyac yoxdur:** “Bu cür insanlar ağıllarına gələni deyir, antimilli mövqedən çıxış edir və ümid də edirlər ki, dedikləri sərsəm fikirlər ətrafında diskussiya gedəcək. Zərdüşt Əlizadə hər zaman Azərbaycana qarşı mövqedə olub, gah İranı, gah da Rusiyanı müdafiə edib. İndi də yəqin ki, Qərbin dəyərlərinə üstünlük verməyə çalışır.

Heç kəsin haqqı yoxdur ki, Azərbaycanı aşağılasın. Azərbaycan imperiya yaratmış bir ölkədir və 5 min illik dövlətçilik tarixi var. Ən azı son 1500 il ərzində Azərbaycan dövləti meydanda olub və dünya səviyyəsində sülalələri hakimiyyətdə olub. Məsələn, Eldənizlər, Ağqoyunlu, Qaraqoyunlu, Əfşarlar sülaləsini göstərə bilərik. Dünya Əfşarlarla, Nadir şahla fəxr edirdi. Napoleon gənc yaşında hakimiyyətə gəlib, özünü Nadirə şaha bənzədirdi. Yəni belə bir tarixi olan dövlət aşağılayıcı fikirlər səsləndirmək düşüncəsizliyin göstəricisidir.

O ki qaldı “Azərbaycan Rusiyanın işğalına qədər çox geridə qalmış Şərq ölkəsi idi” fikrinə, əksinə, Rusiyanın işğalı Azərbaycanı çox geriyə saldı. Azərbaycan vahid bir dövlət kimi inkişaf edirdi. Doğrudur, xanlıqlara parçalanmışdı, amma artıq birləşib mərkəzi hakimiyyət yaranırdı ki, Rusiya buna, Azərbaycanın inkişafına mane oldu. Qərb bir çox mədəniyyəti, dəyərləri Şərqdən götürüb və inkişaf etdirib. Ola bilər ki, müəyyən dövrdə Qərb dəyərləri inkişaf edib, amma Qərb dəyərlərinə yönəlmək üçün Rusiyanın rolunu şişirtməyə ehtiyac yoxdur”.

**❑ Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# CHP başqanının Bakıya məktubunda verdiyi mesaj

## Keçmiş CXP sədri: “Bələdiyyə seçkilərinin nəticələri Türkiyədə yeni dövrün anonsu sayıla bilər”

**Türkiyədə keçirilən bələdiyyə seçkilərində 49 yaşlı əczaçı Özgür Özəlin rəhbərlik etdiyi Cümhuriyyət Xalq Partiyasının (CHP) qalib gəlməsi Azərbaycanda da müxtəlif yorumlara səbəb olub.**

İddia olunur ki, yaxın gələcəkdə CHP-nin Ərdoğanın partiyasını əvəz edərək hakimiyyətə gələcəyini gözləmək olar. Baxmayaraq ki, Türkiyədə növbəti prezident seçkisi 2028-ci ildə keçiriləcək. Ərdoğanın getməsi halında Ankaranın Bakıya qarşı siyasətinin necə olacağı Azərbaycan üçün vacibdir.



Fevralda Azərbaycanda keçirilən prezident seçkisindən sonra Özəl İlham Əliyevə təbrik məktubu göndərərək Cümhuriyyət Xalq Partiyasının “Bir millət, iki dövlət” prinsipinə dəstəyini davam etdirmək və Türkiyənin Azərbaycanla əlaqələrini daha da möhkəmləndirmək əzmini ifadə edib.

“Turan” agentliyi yada salır ki, 2023-cü ilin sentyabrında jurnalistlər qarşısında çıxış edən Özəl deyib ki, prezident seçkisində qalib gələrək iki ölkə arasında münasibətlərdə “ağ səhifə” açmaq üçün Bakıya səfər edəcək. Özəlin sözlərinə görə, Azərbaycan-Türkiyə münasibətləri tarixində aydın olmayan yerlər var ki, onları aydınlaşdırmaq, Türkiyənin səhvlərini müəyyən etmək və irəliyə doğru hərəkət etmək lazımdır.

Həmin ilin noyabrında Cümhuriyyət Xalq Partiyasının sədri olan Özəl “Sabah” qəzetinə deyib ki, onlar - yəni CHP Azərbaycanın xətrinə dəyiblər, bu, onların səhvidir. O, Böyük İpək Yolu xəritəsini Azərbaycandan marşrut olmadan göstərən Kamal Kılıçdaroğlunun çıxışını nəzərdə tutub. Bu çıxış Azərbaycanda tənqid edilmişdi.

**Keçmiş Cümhuriyyət Xalq Partiyasının sədri Bədrədin Quliyev “Yeni Müsavat”a bildirdi ki, son zamanlar təkcə Türkiyənin daxilində deyil, regionda, dünyada gedən geosiyasi proseslərin də qardaş ölkədə keçirilən bələdiyyə seçkilərinin nəticələrinə təsiri oldu:** “Ukrayna müharibəsi, İsrail-Fələstin savaşı və bu müharibələrin meydana gətirdiyi reallıqlar Türkiyəyə ciddi təsirlərini göstərdi. Türkiyənin hazırkı iqtidarı Qərblə uzlaşmayan siyasətə üstünlük verdi. Şübhəsiz ki, bir sıra məqamlara görə Türkiyəyə qarşı haqsızlıqların qarşılığında AKP hökuməti bu siyasətində haqlı idi. Rusiya-Türkiyə münasibətləri də seçkilərdə insanların seçiminə müəyyən təsirini göstərdi. Həmçinin CHP-nin rəhbərliyində dəyişikliklər olması, bələdiyyə başqanlığına namizədlərinin uğurlu namizədlər olması kimi nüanslar da seçicilərin səs verməsində üstünlüyün CHP-yə verilməsini təmin etdi.

Ötən prezident seçkisində Türkiyə xalqı ölkənin siyasi idarəçiliyini, təhlükəsizliyinin təminatını Rəcəb Tayyib Ərdoğana həvalə etdi, bələdiyyə seçkilərində isə yerli idarəetməni AKP-yə deyil, CHP-yə həvalə elədi. Bu seçim türk xalqının demokratik seçimi, demokratik seçkilərin təntənəsidir”.

**B.Quliyev qeyd etdi ki, Türkiyədə vətəndaşlar Suriyadan və digər bu kimi ölkələrdən gələn milyonlarla miqrantlar sarıdan, milli valyutanın dəyər itirməsindən, Avropa İttifaqı ölkələrinə gediş-gəliş məsələlərində çətinliklər meydana gəlməsində əziyyət çəkməyə başlamışdı:** "Bu amillər də bələdiyyə seçkilərinin nəticələrinin hakim partiyanın lehinə olmayacağında öz sözünü dedi. Bələdiyyə seçkilərinin nəticələri Türkiyədə yeni dövrün, dəyişikliklərin anonsu sayıla bilər. Belə görünür ki, Türkiyə xalqı dəyişiklik istəyir. CHP-nin yeni sədrlə, yeni sədrin isə yeni komanda ilə ortaya çıxması seçicilərin rəğbətini və ümidini qazanıb. CHP sosial bələdiyyəçilik sistemi ilə çox ciddi prosesə qoşulub və bu prosesin uğurlu davam etməsi növbəti seçkilər üçün CHP-yə böyük qələbə vəd edir".

**B.Quliyev CHP-nin Azərbaycanla münasibətlərin inkişafına xüsusi diqqət ayıracağını da bildirdi:** “Yeni başqan Özgür Özəl seçiləndən sonra ilk çıxışlarında Azərbaycana qardaş, "can Azərbaycan" dedi və bildirdi ki, bundan öncəki zamanda CHP-nin müəyyən məsələlərdə buraxdığı yanlışları düzəldəcək və Azərbaycanla sıx qardaşlıq münasibətlərini inkişaf etdirəcək. Türkiyənin milli maraqları da bunu tələb etdiyi üçün CHP-nin bu siyasətə üstünlük verəcəyinə şübhə yoxdur".

**❑ Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024

**Azərbaycanda avtomobil istehsalı müstəqillik əldə etdiyimiz müddətdə daim gündəmdə olan, bəzən ümidverici addımlar atılan, sonradan isə yenidən başlanğıc nöqtəsinə qayıdan bir prosesə çevrilib. Biz müzakirələr apardığımız dövrdə bir sıra postsovet ölkələri real addımlar atıb, dünya avtomobil sənayesinin nəhənglərini öz ərazilərində istehsal müəssisəsi yaratmağa sövq edə bildilər. Belə ölkələrdən biri olan Özbəkistan hazırda elektromobil istehsalına köklənib, qabaqcıl Çin şirkəti ilə əməkdaşlığa başlayıb. Rəsmilərin açıqladığı məlumatlara əsasən, Özbəkistanda yığılan avtomobillərin komponentlərinin 30 faizə yaxını elə ölkənin özündə istehsal olunur.**



# Azərbaycanda avtomobil istehsalı: kimə xeyir, kimə zərər?

## Daha bir ölkə ilə avtomobil yığımı müəssisəsi yaradılır

Azərbaycanda isə iki dəfə İranın, bir dəfə Çinin şirkətləri ilə hazır komponentlərdən burada yığımla bağlı işlər başladılıb. “İran Khodro” ilə razılaşmalar çərçivəsində ilk olaraq “AzSamand” avtomobillərinin yığımına başlandı, lakin tezliklə uğursuzluğa düçar olundu. Daha sonra Naxçıvanda Çin şirkəti ilə “Lifan”, “FAW”, “Changan” modellərinin yığımı təmin edildi. Qısa müddət ərzində dövlət qurumlarından müəyyən sifarişlər olsa da, tezliklə onlar dayandı, müəssisədə avtomobil yığımı səmərəsiz hala gəldi. Hazırda müəssisə demək olar ki, istehsalı tam dayandırmaq üzrədir.

2018-ci ildən Neftçalada “İran Khodro” ilə “Xəzər” və “Peugeot” markalı avtomobillər yığılır. Neftçala sənaye məhəlləsində yerləşən zavodun illik istehsal gücü 10 min ədəd avtomobil təşkil edir. 2018-ci ildə zavodda 1500 avtomobil istehsal olunması nəzərdə tutulsa da, Dövlət Statistika Komitəsinin məlumatına görə, ümumilikdə il ərzində Azərbaycanda cəmi 969 ədəd minik avtomobili yığılıb. Müəssisə rəhbərliyi 2020-ci ildə istehsalı 5 min avtomobilə çatdırmağı hədəfləsə də, həmin il heç 1500 avtomobil yığılmadı.

2019-cu ilin fevral ayından zavodda “Peugeot” markalı avtomobillərin istehsalına başlanıb. Şirkət tərəfindən “Peugeot”un 9 modelinin istehsalı nəzərdə tutulduğu deyilirdi. Bundan əlavə, 2021-ci ilin mart ayından etibarən Azərbaycanda yolsuzluq avtomobillərinin (Cip) istehsalına da başlanmalı idi.

İlk illərdə “Khazar” avtomobillərinin də əsas alıcısı dövlət qurumları oldu: İqtisadiyyat, Vergilər, Energetika nazirlikləri, Milli Məclisin Aparatı, Mərkəzi Seçki Komissiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondu, Dövlət Statistika Komitəsinin yerli idarələri və digər qurumlar. 2018-ci ilin ikinci yarısından etibarən ƏƏSMN də müharibə əlillərinə avtomobillərin mühüm bir qismini məhz bu zavoddan əldə edir. Hazırda dövlət qurumlarından yalnız ƏƏSMN-in alışları davam edir. 2023-cü ildə nazirlik Qarabağ müharibəsi qazilərinə 474 avtomobil verib.

Azərbaycanda daha bir ölkə ilə avtomobil yığımı müəssisəsi yaradılır. Ötən ilin mayında Hacıqabul Sənaye Məhəlləsinin ərazisində yaradılacaq Azərbaycan-Özbəkistan birgə avtomobil zavodunun təməli qoyulub. Müəssisə Özbəkistanın “Uzavtosanoat” Səhmdar Cəmiyyəti ilə birgə yaradılır, onun 2025-ci ilin mayında işə salınacağı gözlənilir. Təməlqoyma mərasimində verilən məlumata görə, iki il ərzində zavodun inşasına və burada istehsal prosesinə başlanmasına 88 milyon manat investisiya yönəldiləcək. Müəssisədə ABŞ, İtaliya, Çin, Koreya və Özbəkistan kimi ölkələrin texnologiyalarından istifadə olunmaqla, “Chevrolet”, “Cobalt”, “Malibu”, “Tracker” və “Equinox” markalı minik avtomobillərinin istehsalı nəzərdə tutulur. Bütövlükdə isə zavod işə salındıqdan sonra layihə çərçivəsində burada il ərzində 30 min ədəd avtomobilin istehsal olunacağı gözlənilir. Azərbaycan-Özbəkistan birgə avtomobil istehsalı müəssisəsində ehtiyat hissələrinin istehsal olunacağı da gözlənilir. Azərbaycan Maşın və Avadanlıq İstehsalçıları Assosiasiyasının sədri Emin Axundov bildirib ki, artıq avtomobil istehsalı üzrə birgə müəssisənin tikintisinə start verilib. Avtomobil yığımını təmin edəcək ilk addımdan sonrakı mərhələdə zavodun inkişafı və əlavə istehsalat imkanlarının işə salınmasına hazırlıq işləri görüləcək. Üçüncü mərhələdə isə ehtiyat hissələrinin istehsalı planlaşdırılır.

Xatırladaq ki, Neftçalada İran avtomobillərinin yığımı müəssisəsi işə salınarkən də təxminən eyni hədəflər qarşıya qoyulmuşdu: komponentlərin yerli istehsalının yaradılması. Lakin bu hədəfə hələ də nail olunmayıb...

İndi isə Azərbaycanda “Lada”nın istehsalına başlanılır. Rusiyanın “AvtoVAZ” ASC Azərbaycanda “Lada” avtomobillərinin yığılması layihəsinə başlayıb və 2024-cü ildə 1,5 min avtomobil yığmağı planlaşdırır. **ASC-nin rəhbəri Maksim Sokolovun** verdiyi məlumata görə, Azərbaycanda istehsalat sahələrindən birində avtomobil dəstlərinin qəbulu sahəsi, yığım sexi və hazır avtomobillərin saxlanması üçün dayanacaq təşkil edilib.

Layihə çərçivəsində xüsusi olaraq işə götürülən işçilər Tolyattidən olan mütəxəssislərdən lazımi təlim keçiblər. Onun sözlərinə görə, Azərbaycanda “Lada”nın illik istehsal həcmi növbəti bir neçə ildə 4-5 min avtomobilə çata bilər. Maksim Sokolovun dediyinə görə, ilkin olaraq “Lada Granta”, ilin sonuna kimi “Lada Niva” ailəsinin avtomobillərinin iki modelini - Legend və Travel, eləcə də Vesta ailəsinin avtomobillərini yığmağa başlamaq niyyətindədirlər. “AvtoVAZ” rəhbərinin sözlərinə görə, Azərbaycanda istehsalın açılması şirkətə bu ölkədə bazar payını bərpa etməyə və brendin mövcudluğunu artırmağa kömək edə bilər.

2023-cü ilin dekabrında “AvtoVAZ”ın xarici bazarlarda satış və biznesin inkişafı departamentinin rəhbəri Andrey Vladimirtsev bildirmişdi ki, şirkət Azərbaycana “Lada Vesta”, “Lada Granta” və “Niva Travel” avtomobillərini ixrac etməyi planlaşdırır. Belə görünür ki, ixrac planı burada yığımla əvəz olunub.

2020-ci ilin fevralında Nazirlər Kabineti “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi barədə" qərar qəbul edib. Qərarla minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün istehsal prosesində istifadə olunan ehtiyat hissələrinin Azərbaycana idxalı gömrük rüsumlarından azad olunub. Qurum bunu ölkədə istehsal olunan minik avtomobillərinin yerli və xarici bazarlarda rəqabət qabiliyyətinin daha da artırılması məqsədilə etdiyini açıqlayıb. Belə şəraitdə “Lada”ların burada yığılması idxalından daha sərfəli ola bilər.

**İqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, bazarın həcmi və ekosistem baxımından Azərbaycanda avtomobil sənayesinin inkişafı çox məhduddur:** “Düzdür, Dünya Bankının hesabatında Azərbaycanda avtomobil istehsalı sənayesinin qurulması iqtisadiyyatın şaxələndirilməsi baxımından mümkün hesab olunur. Lakin faktiki qiymətləndirmələr göstərir ki, bu sahədə inkişaf potensialı elə də yüksək deyil. Əvvəla, yeni bir avtomobil modeli yaradıb istehsalı qurub, onun bazarını təmin edəcək elmi-texniki nailiyyətlər əldə olunmayıb. İkincisi, hətta belə nailiyyət olsa da, uzunmüddətli sərmayə qoyuluşu üçün maliyyələşməni təmin edəcək kreditləşmə imkanları mövcud deyil. Digər tərəfdən, dünya iqtisadiyyatı ilə inteqrasiya o səviyyədə deyil ki, istehsal olunacaq yeni avtomobili xaricə ixrac edib, gəlir əldə olunsun. Nəhayət, yerli bazar belə müəssisənin gəlirliliyini təmin edəcək həcmdə deyil. hazırda Azərbaycan bazarında xarici avtomobil markalarının çoxsaylı çeşidi var, seçim imkanları genişdir. Bu şəraitdə yerli istehsalın davamlılığını təmin etmək mümkün deyil. İndiyədək qurulan müəssisələrin taleyi sübut edir ki, daxili bazarın tələbi yüksək olmadığı üçün Azərbaycanda avtomobil istehsalının inkişafı real deyil”.

**Ekspertə görə, “Lada”nın istehsalı mövcud infrastrukturun ayaqda saxlanmasına hədəflənib:** “Azərbaycanda "Lada" avtomobillərinə tələblə bağlı köhnədən qalma ənənə var. Yeni modellərin burada yığılmasını həyata keçirən müəssisənin istehsal imkanlarının müəyyən dövrdə davam etməsi mümkündür. Lakin bu dövr uzunmüddətli olmayıb, daxildəki tələbatın ödənməsinə qədər - yəni bir neçə illik müddəti əhatə edə bilər".

Qeyd edək ki, 2024-cü ilin birinci rübündə Rusiyada “Lada” avtomobillərinin satışı 42,5 faiz artaraq 91,563 min ədəd təşkil edib. “AvtoVAZ”ın mətbuat xidmətinin yaydığı məlumata görə, mart ayında şirkət Rusiya bazarında 42,84 min avtomobil satıb (illik 83,6 faiz, aylıq 53,6 faiz artım). Bu, avtomobil istehsalçısının hesablamalarına görə, 11 il ərzində rekord aylıq nəticədir. Sonuncu dəfə “Lada”nın daha yüksək satış nəticəsi 2012-ci ilin aprelində qeydə alınıb, o zaman Rusiya bazarında 44,1 min “AvtoVAZ” avtomobili satılıb.

Məlumatdan aydın olur ki, birinci rübdə Tolyattidə avtomobil istehsalı 170 faizdən çox artaraq, demək olar ki, 116 min avtomobil təşkil edib.

“AvtoVAZ”ın 2024-cü il üçün istehsal planı 500 min avtomobil, Rusiyada satışları 450 min avtomobildir. Lakin bu planların reallaşması ciddin sual altındadır. Belə ki, bu ilin fevralında ABŞ Maliyyə Nazirliyi “AvtoVAZ”a qarşı sanksiya tətbiq edib. Müəssisəyə məhsul, məsələn, hansısa detalları satan hər hansı xarici tərəfdaş sanksiyalara məruz qala bilər. Rusiya ekspertlərinə görə, ABŞ-ın bu addımı “AvtoVAZ”ın istehsal üçün kəskin asılılıqda olduğu Çin komponentlərini əldə etməsini qat-qat çətinləşdirəcək. Hətta bir çox ekspertlər sanksiyalardan sonra Çindən avtomobil komponentlərinin idxalının 80-90 faizədək dayanacağını gözləyirlər. Onların fikrincə, Rusiyaya hazır avtomobil satmaqda daha maraqlı olan Çin şirkətləri sanksiyaları bəhanə edə bilərlər.

Azərbaycanda qurulan birgə müəssisə bu baxımdan bir müddət daha əlverişli şərtlər əldə edə bilər: Detallar Çindən sanksiya təhlükəsi olmadan idxal oluna, hazır avtomobillər isə Rusiyanın öz bazarına ixrac edilə bilər. Yaxud lazım olan detallar Azərbaycandakı müəssisə adına alınıb, buradan Rusiyaya çatdırıla bilər. Lakin aydın məsələdir ki, bu sxemlə də uzun müddət işləmək mümkün olmaya bilər: ABŞ Azərbaycandakı müəssisəni ikincili sanksiyalara daxil edə bilər. Bu isə Azərbaycanın beynəlxalq imici baxımından heç də arzuolunan hal olmayacaq.

**Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 57 (8430) 3 aprel 2024




# Kimin özəlləşdirmə çeki evində qalıbsa...- mühüm gəlişmə

## Ekspertlər hesab edir ki, çeklər indi adi bir kağız parçasından başqa heç nə deyil...

**Əllərində özəlləşdirmə payları (çeklər) qalan yüzminlərlə vətəndaş adından Milli Məclisin üzvlərinə növbəti müraciət ünvanlanıb. Ayna.az xəbər verir ki, dövlətin qiymətli kağızının tədavül müddətinin qanunsuz olaraq 2011-ci ildə bitməsindən narazı qalan vətəndaşlar pozulan hüquqlarının bərpasını tələb edirlər.**

Haqq sahiblərinin deputatlara müraciətində qeyd edilir ki, yüzminlərlə vətəndaşın hüquqlarının əlindən alınmasına təcili diqqət yetirilməli və yardım edilməlidir. Haqqı pozulan vətəndaşlar Milli Məclis üzvlərinə müraciətlərinin mətnində özəlləşdirmə çeklərinin tədavül müddətinin bitməsinin niyə qanunsuz olduğunu hüquqa uyğun şəkildə izah ediblər. Deputatlardan xahiş olunur ki, Nazirlər Kabinetindən, Konstitusiya Məhkəməsindən, bütün aidiyyəti dövlət orqanlarından vətəndaşların hüquqlarının bərpasını tələb etsinlər.

Özəlləşdirmə çekləri sahiblərinin müraciətləri əsasında Prezident İlham Əliyevin adından problemin aradan qalxması, tarixi ədalətin bərpası üçün Konstitusiya Məhkəməsinə məktub ünvanlanıb. Amma Konstitusiya Məhkəməsi haqqı tapdanmış yüz minlərlə vətəndaşın problemi ilə bağlı qərar vermir. Vətəndaşlar deputatlara ünvanladıqları müraciətdə Milli Məclis üzvlərindən problemin həllində yardımçı olmalarını xahiş edirlər.

Yada salaq ki, 1996-cı ildə Heydər Əliyevin fərmanı ilə vətəndaşlara mülkiyyət sahibi olmaq üçün paylanmış qiymətli kağızlar 2011-ci ildən bu yana tədavüldə deyil. Əllərində qiymətli kağız olan vauçerləri qalmış yüzminlərlə vətəndaş tədavül müddətinin bitməsinin qanunsuz olduğunu, hüquqlarının bərpa olunmasını istəyir.

Çeklərin hər birinin dəyəri eynidir və 1 pay 4 çekdən ibarətdir. Bu hissəyə düşən əmlak ekvivalenti payı qanunda inflyasiyadan qorunan əmlak ekvivalenti payı kimi göstərilib. Eyni zamanda çeklərin etibarlılıq müddəti kimi bir anlayış və göstəriş yoxdur.

**Sabiq maliyyə naziri, professor Fikrət Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a qeyd etdi ki, vətəndaşların böyük əksəriyyəti özəlləşdirmənin birinci mərhələsində əldə etdikləri özəlləşdirmə paylarından maksimum yararlana bilib:** "Özəlləşdirmənin birinci mərhələsi başa çatdıqdan sonra hökumət bu çeklərin sonrakı taleyi ilə bağlı addım atdı. Prezidentin 2009-cu il tarixli fərmanı ilə dövlət özəlləşdirmə çeklərinin son istifadə müddətinin 01 yanvar 2011-ci il tarixində başa çatacağı elan edildi və bildirildi ki, həmin tarixdən çeklər tədavüldən çıxarılacaq. Bu gün həmin çeklərin yenidən dövriyyəyə cəlb edilməsi və ya onların bərpa edilməsi üçün heç bir hüquqi əsas yoxdur. Özəlləşdirmə çekləri özəlləşdirmə prosesinin birinci mərhələsində dövriyyəyə buraxılmışdı və bu mərhələ artıq çoxdan başa çatıb. Yəni bu çeklər artıq öz missiyasını başa vurublar.

Vaxtilə bu çekləri alan vətəndaşlar onlardan faydalanıb mülkiyyət sahibinə çevrilmək istəyində olsalar da, o vaxt özəlləşdirilən bir çox müəssisələrdə əsas payçılar, yəni özəlləşdirilən müəssisələrdə nəzarət səhm paketinə sahib olan şəxslər, özəlləşdirmə payı kimi əlində çeklər olan adamları mümkün qədər özəlləşmə prosesində iştirakdan uzaqlaşdırmağa çalışırdılar və çox təəssüf ki, bir çox hallarda onlar istəklərinə nail oldular. Digər bir qrup insanlar isə aldadılaraq inandırılırdı ki, bu çeklərin gələcəkdə qiymətləri fantastik həddə qədər artacaq və bu səbəbdən onları gələcək üçün qoruyub saxlamaq lazımdır. Başqa bir həqiqət isə bundan ibarətdir ki, özəlləşdirilməyə çıxarılan müəssisələrdə nəzarət zərfinə sahib olan şəxslər bu çeklərin istifadə müddətinin başa çatması barədə bildikləri məlumatları əlində çeklər olan məlumatsız sadə insanlardan gizlədiblər. Digər tərəfdən, dövlətin aidiyyəti qurumlarında bu məsələdə zəruri maarifləndirici təbliğat təşkil edə bilməyiblər ki, insanlar bu çeklərlə bağlı gerçəklər barədə tam məlumatlansınlar. Hesab edirəm ki, özəlləşdirmə çeklərinin son istifadə müddətinin 1 yanvar 2011-ci il tarixində başa çatacağı barədə əhali arasında çox böyük təbliğat işləri aparılmalı və onlar bununla bağlı xəbərdar edilməli idilər. Bu işlərin aidiyyəti qurumlar tərəfindən lazımi səviyyədə təşkil edilməməsi, müəssisələrdə isə nəzarət zərfinə sahib olan şəxslərin bu çeklərin gələcək taleyi barəsində onun sahiblərinə yanlış məlumatlar ötürməsi və ya onları qəsdən məlumatlandırmamaları nəticəsində dövriyyəyə buraxılmış özəlləşdirmə çeklərinin təqribən 20%-ə qədəri bu gün insanların əllərində qalıb. O çeklər indi adi bir kağız parçasından başqa heç nə deyil".

**Professor qeyd edir ki, artıq bir neçə ildir insanların əllərində qalmış özəlləsdirmə çeklərinin sonrakı taleyi ilə bağlı cəmiyyətdə çoxsaylı çağırışlar eşidilir:** "Hesab edirəm ki, aidiyyəti qurumlar məsələyə münasibət bildirməli və bununla da cəmiyyətdə dolaşan bu çağırışlara aydınlıq gətirməlidir".

**Ekspert Əkrəm Həsənov bildirir ki, bu məsələ ilə bağlı dəfələrlə müraciətlər qəbul edib:** "Mövqeyim dəyişməyib. Dövlət bu sahəyə diqqət yetirməli və sonuncuların hüquqlarını müdafiə etməlidir. Amma hər bir halda özəlləşdirmənin nəticələrini qəbul etmək lazımdır. Mülkiyyət hüququ toxunulmazdır. Əks halda, biz heç vaxt normal iqtisadiyyat qura bilməyəcəyik. Bütün ölkələrdə ilkin iri kapital ədalətsiz yollarla əldə edilib. Bizdə də bu, belə olub. Olan olub. Yaxşı bəs çeklərindən istifadə etməyənlərin arqumenti nədir? Axı niyə dövlət dəfələrlə müddəti uzadıb, amma onlar çeklərdən istifadə etməyiblər? Nəyi gözləyirdilər ki? O zaman yalandan söz buraxmışdılar ki, guya çeklərin istifadə müddəti qeyri-məhduddur. Aydın məsələdir ki, istifadə edilməyən çeklərin mütləq əksəriyyəti sadə vətəndaşların deyil, möhtəkirlərin əlində cəmləşib. Deməli, suyu bulandıran da əsasən onlardır. Neçə vaxtdır ki, çeklərin istifadə müddətinin uzadılmasına çalışırlar. Sadə insanlardan da istifadə edirlər".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Qazaxıstandan gətirilmiş 14 ton at əti necə sərf olundu?

## Ekspert hesab edir ki, idxal olunan at əti əsasən kolbasa və sosiskalarda istifadə olunur

**At əti tarixən köçəri xalqların geniş istifadə etdiyi qida məhsulu olub. Bir sıra türk və Orta Asiya xalqlarında qida rasionunun vacib hissəsi kimi indi də o ölkələrdə aktualdır.**

Bir çox mənbələr at ətinin İslam dinində qadağan olunduğunu bildirsə də, tarixən bir çox müsəlman xalqlarının menyusunda olub. At ətinin qadağan olunmasının bir səbəbi də atların əsas minik vasitəsi, xüsusən də uzaq səfərlər və döyüşlərdə əvəzsiz nəqliyyat vasitəsi olması idi.

Məlumdur ki, Azərbaycanda at əti istehlak olunmur. Ancaq ölkəmizə at əti idxal olunur. Bu ilin yanvar ayında Qazaxıstandan Azərbaycana 14,53 ton at əti gətirilib və ətin 1 kiloqramının orta gömrük dəyəri 1,7 dollardır.

Qeyd etdiyimiz kimi, at əti ölkəmizdə istehlak olunmur. Maraqlıdır, idxal olunan at əti hansı sahələrdə istifadə olunacaq?

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli "Baki-xəbər"ə açıqlamasında qeyd edib ki, Azərbaycanda at əti yeyilmir. Ancaq türkdilli ölkələrin bir qismində at əti istehlak edilir. Bu onlarda normal qarşılanır: "At əti ölkəmizə idxal olunur. Bu ət əsasən hisə verilmiş kolbasalarda istifadə edilir".

**Ekspert onu da bildirib ki, Azərbaycanın daxilində ət istehsalı aşağı düşüb. Ət istehsalı azaldığı üçün qiyməti də yüksəkdir. Qonşu ölkələrlə müqayisədə ətin satış qiyməti bahadır:** "Gürcüstanda qoyun əti 5-6 manat, mal əti isə daha ucuzdur. Ancaq bizdə qiymətdən danışmağa dəyməz. Bu səbəbdən də ölkəmizə qonşu ölkələrdən ət idxal olunur. Onu da deyim ki, yerli ət istehsalı azaldığı üçün ət idxalı artır. İdxal olunan ətlər arasında, at, zebu, donuz da olacaq. Yerli istehsal güclənməsə, bu sahədə vəziyyət daha da pisləşəcək".



**Tibbi ekspert Pərvanə Mustafayeva açıqlamasında bildirib ki, sağlam at ətinin insana heç bir zərəri yoxdur:** "At əti qida rasionunun bir hissəsini təşkil edir. Sadəcə, onu nəzərə almaq lazımdır ki, hər bir regionun öz qida rasionu var. Yəni bizim bölgənin insanları at əti yeməyə öyrəşməyiblər. Asiya ölkələrində - Monqolustan, Qazaxıstan, Qırğızıstanda at əti yeyilir. Sadəcə, bunun da müəyyən üsulları var. Bizdə isə işbazlar bunu bilmir. At ətinin spesifik qoxusu olur. Rəngi mal əti ilə müqayisədə daha tünd - sanki malın qara ciyərinin rəngində olur. Yağının rəngi açıq sarı olur. Əlimizi at ətinə toxundurduqdan bir neçə saniyə sonra hava ilə təmas etdikdə ondan sanki balıq məhsulunun qoxusu gəlir. At ətini vizual ayırd edə bilmiriksə, ən yaxşı vasitəsi budur. Asiya ölkələrində atı kəsməzdən əvvəl qaçırdırlar və onun bədənində olan toksik maddələr və qoxu tər vasitəsilə ifraz edilir. İşbazlarımız isə bunun qaydasını bilmədiyinə görə birbaşa kəsib satışa verirlər və həmin iy də qalır".

Ekspert hesab edir ki, idxal olunan at əti əsasən kolbasa və sosiskalarda istifadə olunur. Müxtəlif ədviyyat və dadlandırıcılar vasitəsilə at ətinin qoxusu öldürülür.

Yeni MÜSAVAT
N 57 (8430) 3 aprel 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Təhsillə bağlı yeni plan müəllimləri işsiz qoya bilər

## Şagird sayı az olan məktəblərin böyük məktəblərə birləşdirilməsinin həm təhsil alanlara, həm müəllimlərə çətinlik yaradacağı deyilir, amma...

**Ötən ilin sonlarından başlayaraq, Azərbaycanda azsaylı şagird olan məktəblərin ləğv olunaraq, böyük məktəblərə birləşdiriləcəyi ilə bağlı məsələ geniş müzakirə olunur.**

Qeyd edək ki, bir neçə ay öncə **Məktəbəqədər və Ümumtəhsil üzrə Dövlət Agentliyinin rəhbəri Eşqin Bağırov** bildirib ki, 2024-cü ilin fəaliyyət planında məktəblərin optimallaşdırılması nəzərdə tutulub: "Bura bəzi məktəblərin birləşdirilməsi, bəzilərinin ləğvi, bəzilərinin ümumi ortadan tam ortaya keçidi nəzərdə tutulur. Bu il də bənzər addımlar atılıb.

Bir neçə məktəbə ibtidai sinifdən qəbulu dayandırmışıq. Yalnız yuxarı siniflərdə qəbul aparılıb. Bu, xüsusən böyük qayıdışla əlaqədar məcburi köçkün məktəblərini əhatə edir. Şagird sayı az olan məktəblərin uşaqlarının yaxın ərazidə yerləşən digər təhsil müəssisələrinə daşınması nəzərdə tutulur".

**Agentlik rəhbəri bildirib ki, şagirdlərin bu hallarda daşınması üçün avtobuslar ayrıla bilər:** "Belə təcrübə hazırda da var. Lakin bəzi hallarda biz çalışırıq ki, bu tip hallar minimum sayda olsun. Məsələn, məktəblər əgər təmirə bağlanırsa, biz daşınmanı təmin edirik. Bu tipli məsələlərdə də həmin vəsaitlərin daha səmərəli istifadəsi məqsədilə uşaqların daşınmasını təmin etmək şərtilə uşaqları daha yaxın ərazidə yerləşən məktəblərə cəlbini daha məqsədəmüvafiq hesab edirik. Belə hallar çoxdur. Bu halların hamısını ölçmək, qiymətləndirmək, daha düzgün qərarlar vermək üçün vaxt lazımdır. Bu, bir günlük, bir saatlıq iş deyil. Elə qərarlar verilməlidir ki, sonradan yan təsirləri olmasın. Düşünürük ki, gələn il bu istiqamətdə çox ciddi addımlar atılacaq".

Elm və təhsil naziri Emin Əmrullayev də şagird sayı 0-30 olan məktəblərdə bir şagirdə ildə 7 min manat vəsait xərcləndiyini, bir şagirdi olan məktəbə isə ildə 64 min manat vəsait köçürüldüyünü açıqlamışdı. Nazir təhsilin maliyyələşdirilməsi üçün ayrılan vəsaitin qeyri-bərabər bölüşdürüldüyünü, bu mənada bərabərliyi təmin etmək üçün lazımi addımların atılmasının vacibliyini vurğulamışdı.

Beləliklə, şagird sayı az olan məktəblərin ləğv olunaraq, böyük məktəblərə birləşdirilməsi məsələsi geniş müzakirə olunmaqdadır. Bəzi müəllimlər və valideynlər məktəblərin birləşməsini normal hesab edir, digərləri isə həm şagirdlər, həm müəllimlər üçün çətinlik yaradacağını deyirlər. Müəllimlər isə əsasən məktəblər birləşdikdə iş yerlərini itirəcəklərini düşünürlər.

**Məsələ ilə bağlı təhsil eksperti Elşən Qafarov bildirib ki, ucqar bölgələrdə olan kiçik məktəblərin maliyyə rentabelliyi olmadığı üçün yaxınlıqda olan böyük məktəblərə birləşəcək:** "Ölkədə 4432 orta ümumtəhsil məktəb var. Onlardan da 32-si özəl, digəri dövlət məktəbidir. Dövlət məktəblərindən təxminən 114-ü ibtidai, 3447-i orta, digərləri isə tam orta məktəbdir.

Elm və təhsil naziri Emin Əmrullayev bu yaxınlarda keçirilən brifinqdə 2026-cı ildən adambaşına düşən maliyyələşmə sisteminə keçidin başlayacağı ilə bağlı məlumat verdi və ilkin olaraq 100 məktəbin bu sistemə keçəcəyini bildirdi. Məsələ belədir, təhsilin bütün pillələrində, o cümlədən də ümumtəhsildə hər bir təhsilalana düşən maliyyə normativləri müəyyən olunur, o cümlədən də ümumtəhsildə. Ümumtəhsilin 14 növü var və hər növünə ayrılan maliyyə normativləri dəyişə bilir. Buna görə də ilk öncə ümumtəhsil məktəbləri publik hüquqi şəxsə çevrilməlidir. Nazir Emin Əmrullayev ümumtəhsil məktəblərinin publik hüquqi şəxsə çevrilməsi ilə bağlı hüquqi normativ sənədləri Nazirlər Kabinetinə təqdim edib və yaxın aylarda bu haqda qərar olacaq. Artıq bundan sonra biz məktəblərin adambaşına düşən maliyyələşmə sisteminə keçidinə başlaya bilərik.



Adambaşına düşən maliyyələşmə sistemi nədir? Məsələn, ümumorta məktəblərdə tutaq ki, bir şagirdə onun təhsili üçün ildə 1000 manat pul ayrılır. Bu vəsait ümumtəhsil məktəbinin hesabına köçürüləcək. Bundan sonra ümumtəhsil məktəbləri daha çox maraqlı olacaq ki, onların məktəbində şagird daha çox olsun, təhsil daha yüksək səviyyədə olsun.

Qeyd edim ki, ölkəmizdə hələ 20 il əvvəl adambaşına düşən maliyyə sisteminə keçidə cəhd olunmuşdu, amma təəssüf ki, baş tutmadı.

Beləliklə də, ucqar bölgələrdə olan kiçik məktəblərin maliyyə rentabelliyi olmadığı üçün yaxınlıqda olan böyük məktəblərə birləşmə ehtimalı yaranır".

Bununla belə, ekspert qeyd edib ki, bu prosesin necə köçürüləcəyi ilə bağlı mexanizm hələ ki hazır deyil: "Məsələn, uşaqların qonşu kəndə vaxtı-vaxtında aparılıb-gətirilməsi bağlı nəqliyyatın ayrılması və sairə məsələlər öz həllini tapmalıdır. Bu baxımdan hesab edirəm ki, 2026-cı ildən adambaşına düşən maliyyələşmə sisteminə keçid ilk növbədə şagird sayı 1000-dən yuxarı olan şəhər məktəblərindən başlayacaq və 2030-cu ilə qədər onun əhatəliyi artacaq. Buna görə də şagird sayı 100-dən aşağı olan ucqar bölgələrdəki məktəblərin müəllimləri narahat olmasınlar. Üstəlik, əgər həmin məktəblərin yaxınlığında birləşə biləcək böyük məktəblər yoxdursa, elm və təhsil naziri normadan üstün maliyyələşmə barədə qərar qəbul edə bilər".

Elşən Qafarov kiçik məktəblərin ləğv olunaraq, böyük məktəblərə birləşdirilməsi prosesinin 5-6 ildən sonra başlaya biləcəyini vurğulayıb.

**Təhsil eksperti Kamran Əsədov da qeyd edir ki, ucqar bölgələrdə olan məktəblərdə şagirdlərin sayı kifayət qədər azdır, üstəlik, orada keyfiyyətli təhsil təşkil olunmur, bu baxımdan həmin məktəblər yaxın ərazilərdəki digər yaxın məktəblərə birləşdirilməlidir:** "Məsələn, Xaçmazda, Qubada elə məktəblər var ki, yaxın məsafəsində vaxtilə çox əhali yaşayıb, indi əhali oradan köçüb, gənc nəsil gəlmir. Oradakı məktəblərdə şagird sayı 2-3-4 nəfərdir. Qubada 1 şagirdi olan məktəb var ki, orada müəllim əmək haqqı ala bilmir. Ancaq həmin məktəbin 10-15 dəqiqəlik məsafəsində başqa məktəb var.

Məktəblərin birləşdirilməsi həm də müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına imkan verəcək. Çünki az şagirdi olan məktəblərdə müəllimlərin aldığı əmək haqqı kifayət qədər aşağıdır. Bu və ya digər məktəblərə köçürüləndə onların dərs saatı artacaq. Həmçinin bu, şagirdlər üçün rəqabətli mühit yaradacaq. Hansı ərazilərdə ki köçürmə həyata keçiriləcək, hökumət orada avtobus təşkil etməlidir. Hesab edirəm ki, bu, daha yaxşı və effektlidir. Çünki şagird sayı az olan məktəblər bir çox hallarda ibtidai, 9 illik məktəblərdir. Onsuz da uşaqlar XI sinfə qədər oxumaq üçün digər ərazilərə gedirlər".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Bu şəxslərin təhsil haqqını dövlət ödəyəcək

## "Təhsil haqqında" Qanuna dəyişiklikdə daha nələr var?

**Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək.**

Bu barədə "Təhsil haqqında" Qanuna dəyişiklikdə qeyd olunub.

Dəyişikliyə əsasən, aşağıda qeyd edilən şəxslərin təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək:

- dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər;

- dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan şəhid ailəsinin üzvləri;

- dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;

- dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər,

- dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları;



- dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları;

- peşə təhsili müəssisəsində təhsil alan 20 yaşına çatmamış və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan, aylıq gəliri yaşayış minimumundan aşağı olan şəxslər;

- peşə təhsili müəssisələrində təhsil alan köçürülmə günü ana bətnində olan uşaqlar da daxil olmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobil AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobil qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqlar.

Qeyd edək ki, Milli Məclisin Elm və təhsil komitəsinin ötən həftə keçirilən iclasında "Təhsil haqqında" Qanuna dəyişiklik müzakirəyə çıxarılıb. Qanun layihəsi sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə hazırlanmışdır. Layihəyə əsasən "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda 14.8-1-ci maddənin yeni redaksiyada verilməsi və mövcud qanunvericilikdə nəzərdə tutulan təhsil xərcləri ilə bağlı azadolmaların, o cümlədən bir sıra yeni imtiyazların qeyd edilən maddəyə əlavə edilməsi təklif olunub.

YENİ MÜSAVAT

Son səhifə

N 57 (8430) 3 aprel 2024

Aprel

## Bunları bilirsinizmi?

* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.
* Ağciyərin üzəri 100 kvadrat metrdir. Onun üst qatının sahəsi tennis kortunun sahəsinə bərabərdir.
* Dünya əhalisinin qidasının 70%-dən çoxu 12 çeşiddə bitki və 5 növ heyvandan ibarətdir.
* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.
* İnsan beyni gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.
* Maksimal sayda krossvordu Adrian Bell hazırlayıb. 1930-cu ilin yanvarından 1980-ci ilə qədər o, "Tayms" qəzetinə 4520 krossvord yollayıb.
* İngiltərədə çap olunan ilk kitab Şahmata həsr olunub.
* Kitab oxuyarkən hər saniyədə 70 hüceyrə ölür.
* İnsanın gün ərzində orta gücü 100 vatt, ürəyinin gücü isə 10 vattdır.
* Açıq gözlə asqırmaq qeyri-mümkündür.
* İnsan ağzında 40 000 bakteriya var.
* İnsanların 70%-i çoxluğun fikrindən asılıdır. Yalnız 30% insan öz fikri ilə hərəkət edir.

# İlon Mask süni intellektin təhlükəsindən danışdı



**"Süni intellektin sistemli və daimi inkişafı bütün bəşəriyyətin məhvinə səbəb ola bilər, lakin bu ehtimal 20%-dən çox deyil". Bunu "SpaceX" və "Tesla" şirkətlərinin rəhbəri, "xAI" startapının yaradıcısı İlon Mask deyib. O, Los-Ancelesdə süni intellektə həsr olunmuş konfransda çıxışı zamanı texnoloji təhlükə ilə bağlı məsələyə aydınlıq gətirib.**

"Düşünürəm ki, süni intellektin həqiqətən bəşəriyyətin məhvinə səbəb olacaq bir potensialı var. Burada ehtimal təxminən 10 və ya 20% diapazonundadır", - deyə o bildirib.

## Kifayət qədər yuxulamamaq insanı qocaldır

**Stokholm Universitetinin alimləri özlərini gənc və sağlam hiss etməyin yolunu kəşf ediblər. Araşdırmalara görə, yuxu keyfiyyəti insanın özünü nə qədər gənc hiss etməsi ilə əlaqələndirilir. Mütəxəssislər 18 yaşdan 70 yaşa qədər 429 nəfərin məlumatlarını təhlil ediblər. Respondentlər özlərini neçə yaşda hiss etdiklərini, son bir ayda nə qədər tez-tez kifayət qədər yuxu almadıqlarını və nə qədər yuxulu olduqlarını bildiriblər. Məlum olub ki, hər keyfiyyətsiz yuxu insanı 0,23 yaş qocaldır.**

Tədqiqatçılar həmçinin 18-46 yaş arası 186 nəfərlə eksperiment aparıblar. İki gecə cəmi dörd saat, sonrakı iki gecə doqquz saat yatıblar. Qismən yuxu məhrumiyyətindən sonra könüllülər özlərini 4,4 yaş daha yaşlı hiss etdiklərini bildiriblər. Beləliklə, daha çox oyaqlıq hiss etmək, özünü həqiqi yaşından dörd yaş kiçik hiss etməklə, çox yuxulu hiss etmək isə özünün həqiqi yaşından altı yaş böyük hiss etməsi ilə əlaqələndirilir.

Müəlliflər belə nəticəyə gəlirlər ki, nəticələr qeyri-kafi yuxu və yuxululuğun qoca insanların hisslərinə əhəmiyyətli təsir göstərdiyinə dair güclü sübutlar təqdim edir və yuxunun saxlanması çox güman ki, gənc hiss etmək üçün əsas amildir.

## Çipslərin 7 vacib ziyanı açıqlanıb - öldürücü

**Kartof çipslərinin müntəzəm istehlakının piylənmədən sonsuzluğa qədər yeddi təhlükəli nəticəsi açıqlanıb. Bu barədə "Eat This, Not That!" çoxsaylı elmi araşdırmalara əsaslanaraq xəbərdarlıq edib. Klivlend Klinikası və Harvard Tibb Məktəbinin araşdırmalarına görə, çipslərdən sui-istifadə qan təzyiqinin artmasına səbəb ola bilər. Məşhur qəlyanaltının yüksək duz tərkibi natrium səviyyəsini pozur, bu isə əqli zəiflik və ya ürək problemlərinə səbəb ola bilər.**

Bundan əlavə, Amerika Xərçəng Assosiasiyasının məlumatına görə, işlənmiş qidalar, o cümlədən kartof çipslərində olan akrilamid adlı kanserogen kimyəvi maddə xərçəngə səbəb ola bilər.

Science Daily" yazır ki, çipslərin tərkibində olan akrilamidlər yüksək miqdarda xolesterin ehtiva etdiyi üçün ürək xəstəliklərinə də səbəb ola bilər və insult riskini artırır. Sinqapur Milli Universitetinin araşdırmasına görə, kartof çipslərindəki transyağlar qadınlarda sonsuzluq riskini artırır. Harvard Tibb Məktəbinin alimləri də eyni nəticəyə gəliblər.

# Tailandda minlərlə meymun şəhərin ortasında "vətəndaş müharibəsi"nə başladı



**Tailandda iki meymun dəstəsi arasında "vətəndaş müharibəsi" başlayıb. Bu barədə sosial şəbəkələrdə kadrlar paylaşılıb. Məlumata görə, təxminən minlərlə fərd şəhərə hücum edib və iki qrupa bölünərək döyüşməyə başlayıblar. Bildirilib ki, Lopburi şəhərinin turizm zonaları meymunlar tərəfindən dağıdılıb. Onlar maşınlara minib, mağazalardan yemək oğurlayıb və əmlaka ziyan vurublar. Polis heyvanları zərərsizləşdirmək və təbii yaşayış yerlərinə köçürmək üçün trankvilizatorlardan istifadə etməyə başlayıb.**



## Lotereyada külli miqdarda pul uddu, lakin mükafatı götürə bilmir

**Çində qadın lotereyada külli miqdarda pul udsa da, onu ala bilməyib. Məlumata görə, Tayçjoudan olan bir qadın 930 min dollar məbləğində lotereya uduşunun sahibi olduğunu öyrənib. Lakin o, biletini təsadüfən yuduğu üçün mükafatı götürə bilməyib. Qadın lotereya mərkəzinə zəng edərək vəziyyəti izah edib. Lakin onlar pulu yalnız bilet tam şəkildə təqdim edildikdə verə biləcəklərini deyiblər. "İndi mən daim bu barədə düşünürəm və bu məni incidir", - deyə qadın etiraf edib.**



## Qəhvəni kərə yağı ilə içmək lazımdır

**Qəhvəyə təkcə şəkər, süd və qaymaq deyil, həm də... kərə yağı əlavə edə bilərsiniz. Kərə yağı ilə qəhvə çox sağlam içkidir. Yağlı qəhvə düzgün qidalanmada yeni bir sözdür. İçki orqanizmi bir neçə saat doyurur və maddələr mübadiləsini sürətləndirir. Müntəzəm olaraq kərə yağı ilə qəhvə içməklə arıqlamaqla yanaşı, xolesterinin səviyyəsini və təzyiqi normallaşdıra bilərsiniz. Böyük bir fincan qəhvə üçün bir yemək kaşığı kərə yağı lazımdır, bir çay qaşığı kokos yağı əlavə edə bilərsiniz. Tərkibləri çalxalayıcıda və ya blenderdə çalxalayın və Frappuccino dadını verən içki hazırdır.**

## Alimlərdən spirtli içki qəbul edən qadınlara xəbərdarlıq: risk daha yüksəkdir



**Alimlər müəyyən ediblər ki, həddindən artıq spirtli içki qəbul edən gənc qadınlarda koroner ürək xəstəliyi riski daha yüksəkdir. "News Medical Life Sciences"də yer alan xəbərə görə, tədqiqatçılar ABŞ-ın Kaliforniya ştatındakı bir tibb müəssisəsində müalicə alan, 18-65 yaş arasında olan təxminən 243 mini kişi və 189 mini qadın olmaqla, 430 mindən çox xəstədən toplanmış məlumatları təhlil ediblər.**

Tədqiqatçılar 2014 və 2015-ci illərdə rutin qiymətləndirmələrində xəstələrin bildirdikləri spirt qəbulu səviyyələri ilə 2015-ci ildən sonrakı 4 il ərzində qoyulan koroner ürək xəstəliyi diaqnozları arasındakı əlaqəni təhlil ediblər. Tədqiqatçılar müəyyən ediblər ki, orta yaşı 44 olan və tədqiqat zamanı ürək xəstəliyi olmayan iştirakçılardan 3 108-də bu müddət ərzində koroner ürək xəstəliyi yaranıb. Tədqiqatçılar həftədə səkkiz dəfədən çox spirtli içki qəbul edən gənc qadınların daha az spirtli içki qəbul edənlərlə müqayisədə ürək xəstəliyi riskinin yüksək olduğunu qeyd ediblər.

Araşdırmalar göstərir ki, ən çox xəstələnmə riski "son 3 ayda gündə 3 dəfədən çox spirtli içki qəbul edən qadınlarda və ya gündə 4 dəfədən çox spirtli içki qəbul edən kişilərdə"dir. Həddindən artıq spirtli içki qəbul edən qadınların ürək xəstəliyi tapmaq riski orta dərəcədə spirtli içki qəbul edənlərə nisbətən 68 faiz daha yüksəkdir. Tədqiqat çərçivəsində yüksək miqdarda spirtli içki qəbul edən qadınların orta miqdarda alkoqol istehlak edən qadınlarla müqayisədə ürək xəstəliyi riskinin 29 faiz, az miqdarda spirtli içki qəbul edənlərlə müqayisədə isə 45 faiz daha çox olduğu müəyyən edilib.

Tədqiqatçılardan biri olan kardioloq Camal Rana həddindən artıq spirtli içki qəbul edən kişi və qadınların ürək xəstəliyi riskinin ən yüksək olduğuna diqqət çəkib.

"Həddindən artıq alkoqol istehlak etmədikdə belə qadınlarda risk daha yüksəkdir. Biz yaşlı qadınlarda riskin artdığını gördüyümüz üçün gənc yaş qrupundakı qadınlardan belə bir nəticə gözləmirdik. Bu, tamamilə təəccüblüdür", - kardioloq bildirib.

Tədqiqatın nəticələri "American College of Cardiology"nin aprelin 6-da keçirəcəyi konfransda təqdim olunacaq.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lìsenziya N: B 114
SAYI: 1.500